# Aİ Ukraynaya kəşfiyyat peyki ilə dəstək olacaq



**Avropa İttifaqı (Aİ) Madriddəki peyk mərkəzindən Ukraynada Rusiya qoşunlarının hərəkəti ilə bağlı kəşfiyyat məlumatları təqdim etməyi xahiş edib.**

Bu barədə Aİ-nin Ali Nümayəndəsi Cozep Borrell bildirib.

O deyib ki, Aİ ölkələri Kiyevə hərbi dəstəyini daha da artırmaqda qətiyyətlidir. (apa)

Borrelin sözlərinə görə, Aİ-nin Rusiyaya tətbiq etdiyi sanksiyalar Avropa üçün baha başa gələcək: ”Ancaq biz bunun bədəlini ödəməyə hazır olmalıyıq, yoxsa gələcəkdə daha yüksək bədəl ödəməli olacağıq”. Ali Nümayəndə vurğulayıb ki, Rusiya ilə münasibətlər bundan sonra ticarətlə müəyyən edilməyəcək.



# Parlamentdə ailə qanunvericiliyi barədə dinləmə keçiriləcək

**Milli Məclisdə ailə qanunvericiliyi ilə bağlı dinləmə keçiriləcək.**

”Ailə qanunvericiliyi: ənənəvilik və müasirlik” mövzusunda dinləmə parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin martın 3-də keçiriləcək iclasının gündəliyinə daxil edilib.


❐ № 38 (5560), 2022-ci il

Qiymәti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 mart 2022-ci il (çərşənbə axşamı)





# Bu gün Xarkovdan 150-yə yaxın azərbaycanlı təxliyə ediləcək

**Azərbaycan Respublikasının Xarkovdakı Fəxri konsulluğu sabah 150-yə yaxın şəxsin təxliyəsini təşkil edəcək.**

APA- nın məlumatına görə, konsulluqdan bildirilib ki, təxliyə olunacaq şəxslər saat 8:00-da Cənub vağzalının gözləmə zalında olmalıdırlar.

*Qeyd edilib ki, bu nömrə +380630470550 vasitəsilə qeydiyyatdan keçmək lazımdır.*



# "Rusiyanın Ukrayna torpaqlarına hücumunu qəbuledilməz hesab edirik"

Ərdoğan: “Montrö Konvensiyasının verdiyi səlahiyyətdən istifadə etmək qərarındayıq”

**”Rusiya ilə Ukrayna arasında sülh və sabitliyin təmin edilməsi üçün çoxşaxəli diplomatik təşəbbüslərimizi davam etdirmişik və davam etdirəcəyik.**

Biz Rusiyanın Ukrayna torpaqlarına hücumunu qəbuledilməz hesab edirik, Ukrayna administrasiyası və xalqının mübarizəsini yüksək qiymətləndiririk”.

”Report” xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib.

(səh.2)

# Görüş nəticəsizdir

## Zelenski səsini yüksəltdi, rus qoşunları Krım və Donbassdan da çıxmalıdır






**Dünən Belarusda Rusiya-Ukrayna danışıqları baş tutub. Görüşdə Rusiya nümayəndə heyətini keçmiş mədəniyyət naziri Vladimir Medinski, Ukrayna tərəfini isə deputat David Araxamiya təmsil edib. Danışıqlarda Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin dayandırılması şərtləri müzakirə olunub.**

Ukrayna nümayəndə heyəti Belarusda Rusiya tərəfi ilə danışıqlar zamanı bütün rus qoşunlarının çıxarılmasını tələb edib. Bildirilib ki, Ukrayna nümayəndə heyəti rus qoşunlarının o cümlədən, Krım və Donbassdan çıxarılmasını tələb edib. Məlumat üçün bildirək ki, Ukrayna və Rusiya nümayəndələri görüşərkən rus ordusu Xarkovu bombalayıb.

(səh.3)

# Zelenski Ukraynanın Avropa İttifaqına qəbul olunması üçün ərizə verib



**Ukrayna Prezidenti Volodimir Zelenski ölkəsinin Avropa İttifaqına qəbul olunması üçün ərizə verib.**

Ukrayna Prezidenti müvafiq sənədi dünən imzalayıb. Prezidentin mətbuat katibi Sergey Nikiforov onu tarixi sənəd adlandırıb.

Bundan əvvəl Zelenski demişdi ki, Ukrayna Avropa İttifaqına üzv olmaq hüququna malikdir. Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen isə onun sözlərini şərh edərək belə demişdi: Aİ-yə daxil olmaq dərin transformasiya prosesləri tələb edir və bunu bir neçə ay ərzində həyata keçirmək mümkün deyil.

# NATO-nun qorxduğu baş verdi!

## BBC analitiki: “Yeni Əfqanıstan doğulur”



**Rusiya Prezidenti Putinin göstərişi ilə başlayan işğal Moskvanın gözlədiyi kimi nəticələnmədi. ”Şərq” Türkiyənin ”Milliyet.com.tr” saytına istinadən xəbər verir ki, Kremlin nüvə maşınlarını işə salacağını deməsi müharibəni başqa mərhələyə daşıya bilər.**

BBC analitiklərinin fikirlərinə yer verən nəşr vurğulayıb ki, Kremldə yüksək səviyyəli müdafiə rəsmiləri ilə görüşən Putin Qərbin Rusiyaya qarşı düşmən addımlar atdığını və ”qeyri-qanuni iqtisadi sanksiyalardan” istifadə etdiyini bildirib.

(səh.4)



# Təkcə kart sistemi yaratmaqla iş bitmir

## Parklanmanı proqramlaşdırmaq, xəritəsini çıxarmaq lazımdır

**Ombudsman ödənişli parklama yerləri üçün ”Vahid parklama kartı” sisteminin tətbiq edilməsini təklif edir.**

Bu, parlamentin İnsan hüquqları komitəsində 1 martda müzakirəyə çıxarılacaq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində əksini tapıb.

(səh.4)

# İmtahanlarda iştirak üçün COVİD pasportu tələb olunmur




**İmtahanlarda iştirak üçün COVİD pasportu tələb olunmur.**

Bu barədə Dövlət İmtahan Mərkəzinin ”Facebook” səhifəsində qeyd edilib.

Bildirilib ki, iştirakçılar imtahana gələrkən şəxsiyyət vəsiqəsinin əslini, ”İmtahana buraxılış vərəqəsi”ni və onunla bir yerdə çap olunan ”Sağlamlıq haqqında bəyannamə”ni gətirməlidirlər.

# Yoluxanların sayı azaldı

## Son sutkada 369 nəfər koronavirusa yoluxub, 17 nəfər vəfat edib



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 28.02.2022 | |
| --- | --- | --- | --- |
| Ümumi yoluxanların sayı | 785 670 | Yeni yoluxanların sayı | 369 |
| Ümumi sağalanların sayı | 765 373 | Yeni sağalanların sayı | 1 090 |
| Aktiv xəstə sayı | 10 880 | Bugünkü test sayı | 3 860 |
| Ümumi test sayı | 6 554 964 | Bugünkü ölüm sayı | 17 |
| Ümumi ölüm sayı | 9 417 | | |

Koronavirus İnformasiya Portalı koronavirusinfoaz KoronaVirus İnformasiya portalı KoronaVirus info

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 369 yeni yoluxma faktı qeydə alınıb, 1 090 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 785 670 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 765 373 nəfər müalicə olunaraq sağalıb, 9 417 nəfər vəfat edib, aktiv xəstə sayı 10 880 nəfərdir.

*Ölkədə son sutka ərzində 3 860, hazırkı dövrədək isə 6 554 964 test aparılıb.*



# “Putin indi daha zəifdir"

Amerikalı analitik Paul Qobl: “Hərçənd daxili elitadan kiminsə açıq şəkildə ona meydan oxumaq cəsarətində olduğunu görmək üçün gözləmək lazımdır”

(səh.4)



# "Ağır olacaq, çox ağır"

Ukrayna savaşı azərbaycanlı iş adamlarını da ziyana salıb

(səh.2)

# "Rusiyanın Ukrayna torpaqlarına hücumunu qəbuledilməz hesab edirik"

## Ərdoğan: "Montrö Konvensiyasının verdiyi səlahiyyətdən istifadə etmək qərarındayıq"



**"Rusiya ilə Ukrayna arasında sülh və sabitliyin təmin edilməsi üçün çoxşaxəli diplomatik təşəbbüslərimizi davam etdirmişik və davam etdirəcəyik. Biz Rusiyanın Ukrayna torpaqlarına hücumunu qəbuledilməz hesab edirik, Ukrayna administrasiyası və xalqının mübarizəsini yüksək qiymətləndiririk".**

"Report" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, rəsmi Ankara Montrö Konvensiyasının Türkiyəyə verdiyi səlahiyyətdən böhranın böyüməsinin qarşısını almaq üçün istifadə etmək barədə qərar qəbul edib:

"Bu günə kimi 5 min vətəndaşımız Ukraynanı tərk edərək ölkəmizə və digər ölkələrə köçüb. Tələblərə uyğun olaraq evakuasiya prosesini davam etdirəcəyik. Türkiyə başda BMT, NATO və Aİ olmaqla, iştirak etdiyi qurumlar və ittifaqlar çərçivəsində üzərinə düşən vəzifələri ciddi şəkildə yerinə yetirib".

*Montrö Konvensiyası 1936-cı il iyulun 20-də imzalanmış və həmin il noyabrın 9-da qüvvəyə minib.*

*Konvensiya Türkiyənin Bosfor və Dardanel boğazları üzərində suverenliyini möhkəmləndirib. Qara dəniz dövlətlərinin Türkiyə hakimiyyət orqanlarını əvvəlcədən xəbərdar etmək şərti ilə sülh dövründə istənilən sinifdən olan hərbi gəmiləri boğazlardan keçə bilər. Bu regiondan olmayan dövlətlərin dəniz güclərinin döyüş gəmiləri üçün sinif və tonaj üzrə əhəmiyyətli məhdudiyyətlər tətbiq edilib.*

*Bununla belə, konvensiyanın mətnində müharibə vaxtı ilə bağlı bəndlər var. Türkiyə münaqişə tərəfi olub-olmamasından asılı olaraq, boğazlardan keçidi tənzimləmək üçün əlavə səlahiyyətlərə malikdir. Bəzi hallarda Ankara bunun regionda təhlükəsizliyi pozacağını və ya özünə təhlükə yaradacağını hesab edərsə, hər hansı ölkəyə boğazlardan istifadəni qadağan edə bilər.*

# Əsas mövzu Ukraynadır

## Putin MDB ölkələrinin əksər liderləri ilə əlaqə saxlayıb



**Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında fevralın 26-da telefon danışığı baş tutub. Bu barədə Kremlin saytı məlumat yayıb.**

Məlumata əsasən tərəflər Qarabağla bağlı razılaşmaların icrasını müzakirə ediblər. Tərəflər Ermənistan, Azərbaycan və Rusiya liderlərinin Qarabağa dair 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlarında təsbit olunmuş sazişlərin icrasının praktiki aspektləri, o cümlədən digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Putin-Paşinyan arasındakı telefon danışığını "Şərq"ə dəyərləndirib:**

"Fikir versək görərik ki, yaxın günlərdə Putin bir çox MDB ölkələri ilə əlaqə saxlayıb, müxtəlif mövzuları müzakirə edir. Hansı səpkidə müzakirələrin aparıldığını dəqiqliklə demək çətindir. Amma mənə elə gəlir ki, o mövzulardan biri də ilk növbədə Ukrayna məsələsidir".

**T.Zülfüqarovun fikrincə, Qazaxıstan ya Belarusla aparılan danışıqlarda bu ölkələrin öz qoşunlarını Ukraynaya göndərmək istəyi müzakirə mövzusu ola bilər:**

"Zənnimcə, əsas mövzunu gizlətmək üçün Putin hər ölkə ilə danışığında diqqəti ayrıca bir məsələyə yönəldir. O, Paşinyanla telefon əlaqəsində də Qarabağ məsələsini variant kimi istifadə edib".

**Günəş Mərd**

## Rusiya ordusu Kiyevə "İsgəndər" raketi atıb

**Rusiya ordusu Ukraynanın paytaxtı Kiyev şəhərinə güclü raket hücumu həyata keçirib.**

Bu barədə "Report" RBC-Ukraynaya istinadən xəbər verir.

Raketin atıldığı yer dəqiq müəyyən edilib.

"Kiyevə "İskəndər" ballistik raket hücumu edilib. Dəqiq yer və qurbanlar müəyyənləşdirilir", - daxili işlər nazirinin müşaviri Anton Qeraşenko Telegram-da yazıb.

## Macarıstan Ukraynaya kömək etməkdən imtina etdi

"Biz müharibəyə qarışmamalıyıq"



**Macarıstan Ukrayna Silahlı Qüvvələrinə dəstək verməyəcək. Ölkə Ukrayna hərbçilərinə kömək üçün silah və əsgər göndərilməsinə icazə verməyəcək.**

Trend-in "UNİAN"a istinadən verdiyi məlumata görə, bunu Macarıstanın xarici işlər naziri Peter Siyarto deyib.

Onun sözlərinə görə, Macarıstan öz ərazisi ilə başqa ölkələrdən Ukraynaya hərbi yardım daşımağa icazə verməyəcək.

"Bu qərarın səbəbi odur ki, bu cür daşımalar düşmənin hərbi əməliyyatlarının hədəfinə çevrilə bilər və... biz Macarıstanın təhlükəsizliyini təmin etməliyik... bu müharibəyə qarışmamalıyıq", - deyə XİN rəhbəri bildirib.

## FIFA və UEFA Rusiya və klublarını bütün yarışlarda iştirakdan məhrum edib

**FIFA və UEFA Rusiya milli komandalarını və klublarını bütün yarışlarda iştirakdan məhrum edib.**

Bundan əvvəl isə UEFA və Rusiyanın "Qazprom" şirkəti arasındakı müqaviləyə xitam verilib

Qərardan sonra Rusiya milli komandası və Rusiya klubları FİFA və UEFA-nın keçirdiyi yarışlarda iştirak edə bilməyəcək.

## Göyçayın icra başçısı vəzifəsindən azad olundu



**Prezident İlham Əliyev M.İ.Səlimzadənin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Mehdi İldırım oğlu Səlimzadə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

## Eldar Mansurov "Şöhrət" ordeni ilə təltif edilib



**Prezident İlham Əliyev Eldar Mansurovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Eldar Bəhram oğlu Mansurov "Şöhrət" ordeni ilə təltif edilsin.

## "Ağır olacaq, çox ağır"

Ukrayna savaşı azərbaycanlı iş adamlarını da ziyana salıb



**"Ukraynada Rusiyanın işğalı nəticəsində yaşanan insanlıq faciəsində dünyasını dəyişən, evindən-eşiyindən didərgin düşən xeyli azərbaycanlı da var".**

*Bu barədə millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa deyib.* Deputat bildirib ki, Ukraynada xeyli azərbaycanlı iş adamının iş yerləri, tikdiyi binalar dağıdılıb, onlara böyük maddi ziyan dəyib: "Digər tərəfdən Rusiyadakı sanksiyalarla bağlı böhran bu ölkədə çalışan azərbaycanlıları da iqtisadi cəhətdən çökdürüb. Azərbaycanın bir sıra rayonlarının əhalisi oradan göndərilən pullarla yaşamını təmin edir. Yəni hər iki tərəfdən zərbənin bizim insanlara da dəydiyini görürük. Ağır olacaq, çox ağır. Rusiyada artıq kartdan pul çəkə bilmirlər. İş yerləri çökür. Məşhur rus filmində deyildiyi kimi - "təkcə mənə deyil, bizə 15 sutka veriblər". Əsas odur ki, nə vaxtsa bu savaşı hərləyib-fırlayıb Türkiyə və Azərbaycanın üzərinə yönəltməsinlər".

**İsmayıl**

# Rusiyanın Zelenskini öldürmək planı ola bilməz

"Bu cür informasiyalar müharibə şayiəsindən başqa bir şey deyil"



**"The Times" nəşrində qeyd olunub ki, Kremlin tapşırığı ilə Ukrayna Prezidenti Zelenski və nazirləri öldürmək üçün göndərilən 400 muzdlu hazırda fəaliyyətdədir:**

"Rusiya Prezidenti Vladimir Putinə yaxın şəxs tərəfindən idarə olunan "Vaqner" özəl hərbi şirkəti beş həftə öncə Zelenski hakimiyyətini başsız qoymaq missiyası ilə Afrikadan muzdlular göndərib".

**Məsələni "Şərq"ə şərh edən siyasi ekspert Turab Rzayev bildirib ki, bu heç də inandırıcı görünmür:** "Əgər Zelenskini öldürmək lazım olsa idi rus kəşfiyyatı bunun üçün öz və ya digər xüsusi xidmət orqanlarının nümayəndələrini cəlb edərdi. Bu məqsədlə Afrikadan hər hansısa döyüşçünü gətirmək lazım gəlməzdi. Rusiyanın özündə fərqli kateqoriyadan olan kifayət qədər xüsusi təyinatlı qüvvələr, eyni zamanda, özündə yaxın bölgələrdə kifayət qədər belə döyüşçülər var. Onlardan istifadə edə bilərdi. Bu cür informasiyalar müharibə şayiəsindən başqa bir şey deyil". Analitikin fikrincə, Zelenskini indiki vəziyyətdə öldürmək Rusiyanı dünya siyasətindən tamamilə təcrid edə bilər: "Çünki dünya siyasətində ölkə rəhbərlərinə, prezidentlərə qarşı bu cür sui-qəsd cəhdləri heç bir halda xoş qarşılanmır. Rəsmi Moskva tərəfindən belə bir addım atılsa, Rusiya heç vaxt dünya cəmiyyətinə inteqrasiya edə bilməyəcək. Ona görə Kremlin bunu planlaşdırdığını düşünmürəm. İndi Rusiya Zelenskini hakimiyyətdən uzaqlaşdırıb, yerinə başqa birini gətirmək fikrində ola bilər".

# "Bu foto millətinə sığınmağın rəsmidir"



Psixoloq: "Zelenski kabinet məmuru deyil, hərbçilərin yanında olduğunu, müharibəni hiss etdiyini vurğulamaq istəyir"

**Üz, əllər, gözlər, baxış, qollar, mimika, jest, geyim, makyaj hamısının bir mesajı var. Bədən dili hiss etdiklərimizi və ya ağlımızdan keçənləri əl, qol hərəkətləri və üz ifadələri ilə çatdırmaqdır. Bədənimizdən gələn mesajlar sözlərdən daha təsirli və dürüst ünsiyyət təmin edir. Məsələn, dodağını bükərək bəyəndiyini, söylədiyin nəyisə bəyəndiyinə qarşındakını inandıra bilmək qeyri-mümkündür.**

Ukrayna-Rusiya müharibəsinin getdiyi vaxtda iki dövlətin rəhbərlərinin bədən dili müzakirələrə səbəb olub. Xüsusilə, Ukrayna Prezidenti Volodimir Zelenskinin üç gün əvvəlki çıxışı bir çoxunun diqqətini çəkib.

**Dövlət rəhbərinin bədən dili ilə bağlı "Şərq"ə danışan psixoloq Fərqanə Mehmanqızı diqqətə çatdırıb ki, duruş insanın xarakterinə, vəziyyətə uyğun dəyişir. Onun sözlərinə görə, bədən dilinin ümumi bir düsturu yoxdur:**

"V.Zelenskinin üzərində müharibənin gərginliyi, günlərin yuxusuzluğu var. O, aktyorluq qabiliyyəti, istedadı ilə aqressiyasını, gərginliyini gizlətməyə çalışır. Millətdə ruh yüksəkliyi yaratmaq, xalqı səfərbər etmək üçün məqsədli özünü toparlamağa səy göstərir. Əl hərəkətləri vasitəsilə qələbəyə inamının mesajını ötürmə məsuliyyəti olsa da, daxilən isə narahatlığını büruzə verir. Fikirlərini ifadə edərkən istər səs tonunda, istərsə də, üz cizgizlərində narahatlıq açıq şəkildə nəzərə çarpır".

**Psixoloq V.Zelenskinin şəklinin A.Hitlerin hücümunu eşitdiyi an Stalinin çəkilən fotosunu xatırlatdığını söyləyib:**

"Çarəsizliyin, millətinə, xalqına sığınmağın rəsmidir. Dodağının sıxılması səssiz bağırtıdır. Demək istədiyi, lakin söyləyə bilmədiyi fikirləri mövcuddur. Bəlkə də, həmin an xalqına ehtiyac duyduğunu bildirməlidir, lakin korreksiya etməli, güclü obraz kimi görünməlidir. Bunların fonunda dünyaya meydan oxumaq asan deyil. Hərbi kamuflyaj geyimləri də diqqətdən kənarda qalmır. Kabinet məmuru deyil, hərbçilərin yanında olduğunu, müharibəni hiss etdiyini vurğulamaq istəyir. Ali Baş Komandan yox, səhra əsgəri kimi özünü nümayiş etdirir. Geyimləri təbiətin verdiyi rənglərlə ahəngdir".

**Aygün Tahir**

# Təkcə kart sistemi yaratmaqla iş bitmir

## Parklanmanı proqramlaşdırmaq, xəritəsini çıxarmaq lazımdır

**Ombudsman ödənişli parklama yerləri üçün "Vahid parklama kartı" sisteminin tətbiq edilməsini təklif edir.**

**Bu, parlamentin İnsan hüquqları komitəsində 1 martda müzakirəyə çıxarılacaq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində əksini tapıb.**

Məruzədə avtomobil yollarının, parklama yerlərinin və səkilərin yenidən qurulması, o cümlədən müxtəlif təmir-bərpa işlərinin aparılması, habelə tədbirlərin keçirilməsi zamanı nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin təşkilinə diqqətin artırılması, bu barədə yol hərəkəti iştirakçılarının qabaqcadan kütləvi informasiya vasitələri və sosial şəbəkələr vasitəsilə, habelə həmin ərazilərdə müvafiq xəbərdaredici nişanlar və məlumat lövhələri quraşdırılmaqla məlumatlandırılmasına diqqətin artırılması təklif edilir.

Ombudsman ödənişli parklama yerləri üçün (özəl parklama yerləri istisna olmaqla) 8, 12 və 24 saatlıq abunə paketləri müəyyən edilməklə "Vahid parklama kartı" (vahid ödəniş aparmaqla abunə dövrü ərzində bütün ödənişli parklama yerlərindən istifadəyə imkan verən) sisteminin tətbiqini tövsiyə edir.

Parklanma problemi Azərbaycanda illərdir həllini gözləyən məsələlərdən biridir. Bu səbəbdən qeyd olunan təklif bu sahədə çətinliklərin aradan qaldırılmasına töhfə verə bilər.

**Nəqliyyat üzrə ekspert Fərhad Eyyubov da "Şərq"ə açıqlamasında bildirib ki, parklanma məsələləri çox böyük problemdir.**

"İlk növbədə parklanmanı qaydaya salmaq və pasportlaşdırmaq lazımdır. Bu məsələ Bakı Nəqliyyat Agentliyinə (BNA) həvalə edilib. İndi BNA Bakı Şəhər İcra Hakimiyyətinin də dəstəyi ilə bunu həll edə bilər.

Parklanmanı proqramlaşdırmaq, xəritəsini çıxarmaq lazımdır. Daha sonra onun icra mexanizmi üzərində işləmək olar. Bu mexanizm müxtəlif formalarda ola bilər. Onlardan biri də həmin kart sistemidir. Bunlar yerinə yetiriləndən sonra, ödənişin hansı formada olacağı məsələsinə baxılacaq. Çünki ödəniş təkcə kart vasitəsilə baş tutmur. Burada qarışıq üsul tətbiq olunmalıdır. Yəqin ki, müəyyən yerlərdə hansı üsul daha asandı, əlverişlidirsə, ondan istifadə edəcəklər. Özəl dayanacaqlarda bu məsələni sistemə uyğun olaraq həll edə bilərlər.

"Xarici ölkələrdə parklanma yerlərinə daxil olan avtomobillər xüsusi dedektorlar vasitəsilə müəyyən edilir. Ayın sonunda isə parklama borcu ilə bağlı çek göndərilir"



Hətta xarici ölkələrdə parklanma yerlərinə daxil olan avtomobillər xüsusi dedektorlar vasitəsilə müəyyən edilir. Ayın sonunda isə parklama borcu ilə bağlı çek göndərilir. Bu, ən müasir üsullardan biridir.

Yəni təkcə vahid kart sistemi yaratmaqla iş bitmir. Bu, elə də böyük bir inqilab deyil. Parklanma ilə bağlı bütün problemlər aradan qaldırılanda, bu da həll edilmiş problemlərin sırasında öz yerini tutacaq".

**Sənan İsmayıl**



# Görüş nəticəsizdir

## Zelenski səsini yüksəltdi, rus qoşunları Krım və Donbassdan da çıxmalıdır

İsmayıl Qocayev

**Dünən Belarusda Rusiya-Ukrayna danışıqları baş tutub. Görüşdə Rusiya nümayəndə heyətini keçmiş mədəniyyət naziri Vladimir Medinski, Ukrayna tərəfini isə deputat David Araxamiya təmsil edib. Danışıqlarda Rusiyanın Ukraynaya hərbi müdaxiləsinin dayandırılması şərtləri müzakirə olunub.**

Ukrayna nümayəndə heyəti Belarusda Rusiya tərəfi ilə danışıqlar zamanı bütün rus qoşunlarının çıxarılmasını tələb edib. Bildirilib ki, Ukrayna nümayəndə heyəti rus qoşunlarının o cümlədən, Krım və Donbassdan çıxarılmasını tələb edib. Məlumat üçün bildirək ki, Ukrayna və Rusiya nümayəndələri görüşərkən rus ordusu Xarkovu bombalayıb. Hava hücumu nəticəsində xeyli mülki sakin həyatını itirib.

**Ukrayna və Rusiya arasında danışıqların ilk raundu çətin keçib**

*Pripyatda Ukrayna və Rusiya arasında danışıqların ilk raundu çətin keçib.*

APA xəbər veri ki, bu barədə Ukrayna Prezidenti Volodimir Zelenskinin aparat rəhbərinin müşaviri Mixail Podolyak "Twitter" səhifəsində yazıb.

"Danışıqlar çətin oldu. Bununla belə heç bir ultimatum olmadı",- deyə Podalyak qeyd edib.

Podalyakın sözlərinə görə, qarşı tərəf hələ də qərəz nümayiş etdirir.

Kremlin mətbuat xidməti Rusiya Prezidenti Vladimir Putinin fransalı həmkarı Emmanuel Makronla danışığının təfərrüatlarını açıqlayıb.



APA-nın Moskva müxbirinin Kremlin saytına istinadən xəbərinə görə, Putin Makronla telefon danışığı zamanı bildirib ki, Ukrayna ətrafında nizamlanma yalnız Rusiyanın qanuni təhlükəsizlik maraqları qeyd-şərtsiz nəzərə alınarsa mümkündür.

"Vladimir Putin vurğulayıb ki, belə bir nizamlanma yalnız Rusiyanın qanuni təhlükəsizlik maraqlarının qeyd-şərtsiz nəzərə alınması, o cümlədən Rusiyanın Krım üzərində suverenliyinin tanınması, Ukrayna dövlətinin demilitarizasiyası və denazifikasiyası vəzifələrinin həlli və onun neytral statusunun təmin edilməsi ilə mümkündür", - Kremlin məlumatında qeyd olunub.

**Artıq Zelenski Rusiya qarşısında güzəştə getməyi düşünmür**

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, Rusiya görüşə razılıq verməklə dünyaya danışıqlarda maraqlı olduğunu göstərmək istəyir. Analitikə görə, Moskva çalışır ki, üzərində savaşın məsuliyyəti qalmasın:** "Rusiyanın arqumentləri o zaman təsirli görünərdi ki, Moskva iddia etdiyi kimi iki günə, yəni 48 saata "ildırımsürətli müharibə" ilə Ukraynaya qalib gələrdi. O zaman Qərb də bunu qəbul edərdi. Amma biz gördük ki, tamamilə fərqli senari cərəyan etməyə başladı. İlk görüş uğursuz başa çatdı. Görüşün sonuna yaxın Xarkovun bombalanması göstərdi ki, tərəflər ortaq məxrəcə gəlməkdən çox uzaqdır. Ukrayna Prezidenti V.Zelenskinin səsinin yüksəlməsi, NATO-dan, Qərb və Şərqdən ciddi hərbi-humanitar dəstək alması Kiyevin əlini gücləndirdi. Artıq Zelenski Rusiya qarşısında güzəştə getməyi düşünmür".

**Ə.Əlibəyli vurğulayıb ki, Rusiya görüşə nail olmaqla müharibənin dayandırılmasına çalışmır:** "Rusiya məsuliyyətdən qaçmaq istəyir. Daha doğrusu, müharibənin məsuliyyətini Ukraynanın da üzərinə atmağa çalışır. Həm də göstərir ki, Moskva hər zaman danışıqlara, müzakirələrə hazırdır. Çox güman ki, Kremlin başqa senariləri də var. İndiki halda Rusiyanın Kiyevin şərtlərini qəbul etməsi, ordusunu Donetsk və Luqanskdan çıxarması Moskva üçün fiasko deməkdir. Amma müəyyən çərçivədə Kiyevlə razılıq əldə olunması Rusiyanı daha çox rüsvay olmaqdan qurtara bilər".

# Ermənilər heç vaxt bizimlə səmimi olmayacaqlar

## Yaxın 50 ildə erməni yalanlarına qarşı duruş gətirmək üçün durmadan çalışmalıyıq



"Hakimiyyətə hansı şəbəkənin gəlməsindən asılı olmayaraq, uydurma soyqırım təbliğatından əl çəkməyəcəklər"

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-in Sumqayıt hadisələri ilə bağlı yaydığı tamamilə əsassız və yalan dolu iddialara münasibət bildirib. Nazirlikdən vurğulanıb ki, 1988-ci il fevral ayının sonlarında Sumqayıt şəhərində törədilən qanlı hadisələr Azərbaycana qarşı öncədən düşünülmüş və planlaşdırılmış təxribat idi.**

XİN bir daha xatırladıb ki, SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açılıb, istintaq aparılıb. Nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanlar müəyyən edilib: "Hadisənin qurbanları arasında 6 nəfəri azərbaycanlı idi. Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub. Onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb". Qeyd olunub ki, 27-29 fevral 1988-ci il tarixli Sumqayıt hadisələri ilə əlaqədar məhkəmə prosesinin nəticələri ilə bağlı təqsirkar bilinən 92 nəfər barəsində həbs cəzası verilib. Həmçinin bir nəfər ölüm cəzası alıb. Lakin 1980-ci illərin sonlarında Ermənistan SSRİ-də azərbaycanlıların tarix boyu sıx yaşadıqları rayonlardan zorla qovulması zamanı 217 azərbaycanlının ölümündə təqsirli olanlar barəsində heç bir tədbir görülməyib. Azərbaycanın 20 faiz ərazisini otuz ilə yaxın müddətdə hərbi işğal altında saxlayan Ermənistan öz təcavüzkar siyasəti çərçivəsində çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətlər törədib. Lakin bu cinayətləri törədənlərdən heç kim bugünədək hüquqi məsuliyyətə cəlb olunmayıb. Nə qədər ki, Ermənistan hakimiyyəti yalan üzərində qurulan barışmaz mövqe nümayiş etdirəcək, təəssüf ki, bir o qədər erməni xalqı sülh və rifahdan məhrum olacaq.

**Vəhdət Partiyasının sədr müavini, Sumqayıt sakini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında bildirib ki, "Sumqayıt hadisələri" zamanı fəal gənc olaraq hadisələrin episentrində olub. Partiya funksionerinin sözlərinə görə, məlum hadisələr onun gözləri önündə baş verib:** "Sadəcə, bir faktı qeyd etmək istəyirəm. Fevralın 26-da təhsil aldığım institutun qarşısına xeyli sayda qaçqınlar cəlb edilmişdi. İnsanlar acıqlı idilər və bu, başadüşülən idi. Lakin kütlə arxa cərgədə dayanmış dəri plaşlı adamlar tərəfindən idarə olunurdu. Onlar iddia edirdilər ki, guya, institutda erməniləri gizlədiblər və onlara təhvil verilməsini istəyirlər. Açığı, bu insanların arasında xeyli sayda həm fizioloji quruluşu, həm də ləhcələri çox fərqli olan insanlar var idi. Biz bacardığımız qədər olayların qarşısını alırdıq. Bu an arxa tərəfdən qara "Qaz-24" maşınından iki ədəd nağara gətirdilər və insanları coşdurmaq üçün ritmlər çalmağa başladılar. Kütlə üzərimizə yeridi və giriş qapılarının şüşəsini qırdı. Biz bir neçə nəfər onları inandırdıq ki, içəridə heç kim yoxdur. İki nəfər nümayəndələri ilə otaqları gəzdirdik. Ona qədər erməni və rus tələbələri otaqlarda gizlədə bilmişdik. Bütün bunları, əgər vicdanları ölməyibsə, Sumqayıtda təhsil alan ermənilər təsdiq edərlər. Şahid kimi bunları deməkdə məqsədim odur ki, Ermənistanın bizə qarşı istifadə etdiyi qara piarın heç bir əsası yoxdur".

**V.Əfəndiyev bəyan edib ki, ermənilər heç vaxt bizimlə səmimi olmayacaqlar:** "Hakimiyyətə hansı şəbəkənin gəlməsindən asılı olmayaraq, uydurma soyqırım təbliğatından əl çəkməyəcəklər. Biz isə eyforiyaya qapılmamalıyıq, erməni riyakarlığını durmadan ifşa etməliyik. Yaxın 50 ildə erməni yalanlarına qarşı duruş gətirmək üçün durmadan çalışmalıyıq. Ermənilər düzələn deyil. Hazırda dünyada çox ciddi proseslər gedir. Rusiya Prezidenti V.Putin ölkəni dönüşü olmayan yola istiqamətləndirir. Müharibənin nəticəsindən asılı olmayaraq, Ukrayna yenidən dirçələcək. Avropa İttifaqı və ABŞ Ukraynanın iqqtisadiyyatının dirçəlməsi üçün milyardlar ayıracaq. Ermənistan da fürsətdən istifadə edib, "əzilən rəzil xalq" obrazında dünyaya əl açmaq üçün fürsət gözləyir".

İsmayıl Qocayev



**Mövzu ilə bağlı daha ətraflı "Şərq"ə danışan R.Arifoğlu bildirib ki, erməni xislətini gizlədə bilməyən şəxsin Azərbaycanda media quruluşunun olmasını düzgün hesab etmir:**

"Marqarita Simonyanın rəhbərlik etdiyi mətbuat orqanı Azərbaycanda mövcud olmamalıdır. Onlar ölkəmizdə nəinki yayım edir, hətta geniş redaksiyaları var. Düzdü, orada bizim azərbaycanlı həmkarlarımız çalışır. Yenə də bu, yolverilməzdir. Çünki həmin quruluş Kremlin təbliğatçısıdır. Həmçinin rəhbəri M.Simonyan Azərbaycana düşmən kəsilən adamdır. Prezidentlə debatda özünü necə tərbiyəsiz, düşməncəsinə, qeyri-obyektiv apardığını hər kəs müşahidə etdi. "Sputnik"in Azərbaycanda hələ də fəaliyyət göstərməsi Prezident İlham Əliyevin demokrat insan olmasından və tolerantlığından irəli gəlir".

# "Sputnik" Azərbaycanda mövcud olmamalıdır"

## Rauf Arifoğlu sərt danışdı

**"Yeni Musavat" media qrupunun rəhbəri Rauf Arifoğlu "Facebook" hesabında Avropa Komissiyasının "Sputnik"lə bağlı qərarından yazıb. R.Arifoğlu qeyd edib: "Ölkəmizin düşməni Marqarita Simonyanın "Russia Today" və "Sputnik" quruluşları Aİ ərazisində yayımlanmayacaq. Bu qərara Azərbaycan da qoşulmalı!".**

Qeyd edək ki, "Sputnik" Rusiyanın dövlət xəbər agentliyidir. Bu media quruluşu 10 noyabr 2014-cü ildə Rusiya hökumətinə məxsus "Rossiya Seqodnya" xəbər agentliyi tərəfindən təsis edilib. "Sputnik"in Azərbaycanda regional redaksiyaları fəaliyyət göstərir.

Xanlar ƏLİBƏY

# "Moskva yolun sonundadır"

## Cümşüd Nuriyev: "Kreml rəhbəri hazırda həddindən artıq psixi gərginlik altındadır"

**Rusiyanın Ukrayna ərazisinə hərbi təcavüzü və günlərlə davam etdirilən işğalçılıq rus ictimaiyyətinin də narazılığına səbəb olub. Rusiyanın bir çox şəhərlərində hökumətə qarşı etiraz aksiyaları keçirilib. Ötən gün Sankt-Peterburq şəhərində Ukraynaya edilən hərbi müdaxiləyə qarşı etiraz aksiyası zamanı onlarla adam saxlanılıb. Şəhərin Nevski prospektində toplanan yüzlərlə aksiyaçı Rusiyanın Ukraynaya hərbi müdaxiləsinə öz etirazlarını bildiriblər.**

"Müharibəyə yox" şüarının səsləndirildiyi etiraz aksiyasında qocalar da iştirak edib. Aksiyaçılar Prezident Vladimir Putin əleyhinə də şüarlar səsləndiriblər. Paytaxt Moskva daxil olmaqla ölkənin çox sayda şəhərində keçirilən etiraz aksiyaları zamanı yüzlərlə adam həbs olunub. Rusiyanın siyasi elitası və iş adamları da Putinin həyata keçirdiyi siyasətin düzgün olmadığı qənaətindədir. Rusiya Dövlət Dumasının sabiq deputatı Vyaçeslav Marxayev rusların Ukraynaya hücumunu kəskin tənqid edib: "Çox təəssüf edirəm ki, "dxr" və "lxr"in tanınması üçün bütün kampaniyanın əvvəlcə gizlədilmiş tamamilə fərqli ideya və planı var idi və nəticədə biz iki dövlət arasında genişmiqyaslı qarşıdurma və müharibə vəziyyətində özümüzü tapdıq. İkili standart üsullarından istifadə etməyə başlayan Rusiya hakimiyyətini tənqid edirəm". Rusiyalı oliqarxlar da hökuməti müharibəni dayandırmağa çağırıblar. Milyarder Oleq Deripaska və Mixail Fridman tərəfləri dərhal danışıq masasına oturmağa səsləyiblər. Rusiyanın bir sıra alim və elm sahəsində çalışan araşdırmaçı jurnalistləri də Putinin Ukrayna torpaqlarında başlatdığı işğala etiraz ediblər.

Etiraz məktubunu minlərlə elm adamı imzalayıb. Vurğulanıb ki, bu ölümcül addım çoxsaylı insan itkisinə yol açmaqda və beynəlxalq təhlükəsizlik sistemini sarsıtmaqdadır: "Avropada yeni bir müharibənin başladılması məsuliyyəti tamamilə Rusiyaya aiddir. Bu müharibənin məntiqli bir səbəbi yoxdur. Onlara qarşı savaş haqsız və mənasızdır. Ukrayna bizə yaxın ölkə olub. Çoxumuzun Ukraynada yaşayan qohumları, dostları və həmkarları var. Babalarımız, atalarımız nasizmə qarşı birlikdə savaşıblar. Rusiyanın liderliyinin geopolitik ambisiyaları uğrunda müharibəyə girişmək gülünc bir xəyanətdir".



"Rusiya nəzərdə tutduğu müddətdə Ukraynanı işğal edə bilmədiyi üçün daha da aqressivləşib"

**Rusiyada daxili etirazları "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, əfsuslar olsun ki, Kreml rəhbəri rusların etirazına məhəl qoymur. Professor vurğulayıb ki, Putin XXI əsrdə böyük rus şovinizminin banisidir:** "1919-cu ildə Lenin yazırdı ki, "Rusiya hər zaman şovinizmə meyl edəndə uçurumun kənarına gəlir, əgər lider ağıllıdırsa, xilas olur, əks halda uçuruma yuvarlanır". Artıq Moskva yolun sonundadır. Kreml rəhbəri hazırda həddindən artıq psixi gərginlik altındadır. Ona görə də verdiyi qərarlar ölçülü-biçili olmur. Digər yandan rus kanalları dünyaya bəyan edirlər ki, "Rusiyasız dünya yoxdur, əgər ruslar yoxdursa, dünya da olmayacaq". Nüvə silahından istifadə edəcəklərini gündəmə gətirirlər. Rusiya nəzərdə tutduğu müddətdə Ukraynanı işğal edə bilmədiyi üçün daha da aqressivləşib. Moskva Qərb ölkələrinə nota verir və məqsədindən geri çəkilməyəcəyini deyir. Lakin rusların bütün addımları uğursuzluqla nəticələnir. Rusiyanın kəşfiyyat orqanları uzun müddət Ukraynada milyardlarla vəsait xərcləyiblər. Ancaq müharibə zamanı bəlli oldu ki, rus kəşfiyyatı Ukraynada heç bir casus şəbəkəsi yarada bilməyib. Tərəflərin danışıqlarından nəticə gözləmirəm. Çox güman, Putin də tezliklə dayanmayacaq və bir müddət dirənməyə çalışacaq".

İsmayıl Qocayev



# NATO-nun qorxduğu baş verdi!

## BBC analitiki: "Yeni Əfqanıstan doğulur"

**Rusiya Prezidenti Putinin göstərişi ilə başlayan işğal Moskvanın gözlədiyi kimi nəticələnmədi. "Şərq" Türkiyənin "Milliyet.com.tr" saytına istinadən xəbər verir ki, Kremlin nüvə maşınlarını işə salacağını deməsi müharibəni başqa mərhələyə daşıya bilər.**

BBC analitiklərinin fikirlərinə yer verən nəşr vurğulayıb ki, Kremldə yüksək səviyyəli müdafiə rəsmiləri ilə görüşən Putin Qərbin Rusiyaya qarşı düşmən addımlar atdığını və "qeyri-qanuni iqtisadi sanksiyalardan" istifadə etdiyini bildirib. Putin nüvə enerjisini gündəmə gətirməsinə səbəb kimi NATO rəsmilərinin "aqressiv bəyanatlarını" göstərib. BBC-nin təhlilinə görə, bu addım Putinin Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara qəzəbini, həmçinin ölkəsinin NATO təhlükəsi altında olması ilə bağlı "paranoyasını" göstərir. Bəyanat Qərbdə də böyük diqqət çəkib. Vurğulanıb ki, NATO-nun Ukraynaya qoşun yeritməyəcəyini açıqlamasının səbəbi budur. Rusiyanın işğalı planlaşdırıldığı kimi getmir. İşğalın 5-ci günündə hələ də Ukraynanın heç bir böyük şəhəri Rusiyanın nəzarətinə keçməyib və Rusiya ağır itkilər verir. Bu, Moskvada səbirsizliyə və məyusluğa səbəb olur. Nəşr yazıb ki, Putin Ukraynanın tamamilə Rusiyanın təsiri altında olmasını istəyir. Zelenski isə ölkəsinin müstəqilliyini müdafiə edir. Burada güzəştə getmək çətindir.



Qərbə edilən nüvə xəbərdarlığını da əlavə etsək, yaxın günlərdə Rusiyanın Ukraynaya qarşı təcavüzünün güclənməsinin və mülki insanların həyatına daha az diqqət yetirildiyinin şahidi ola bilərik.

**Putin üçün Ukrayna Əfqanıstana dönə bilər**

Tarix müharibəyə başlamağın onu bitirməkdən qat-qat asan olduğunu göstərən nümunələrlə doludur. ABŞ-ın 2001-ci ildə Əfqanıstana və 2003-cü ildə İraqa müdaxiləsi şübhəsiz ki, bu nümunələrdən ikisidir. Vladimir Putin üçün Ukrayna belə bir nümunə ola bilər: "Deyirlər ki, bütün hərbi planlar ancaq düşmənlə ilk təmas anına qədər qüvvədədir. Eyni sözləri Rusiyanın Ukraynadakı planları haqqında da demək olar. Təhlükəsizlik eksperti Ed Arnold deyir ki, Rusiyanın ilk hücumları təsirli olmayıb və gözləniləndən daha yavaş olub. Onun fikrincə, bunun bir çox səbəbi var. İşğallarda istifadə edilən hərbi doktrinanın adətən düşmən ölkəyə böyük güclə girmək olduğunu ifadə edən Arnold, Rusiyanın Ukrayna ətrafındakı 150-190 minlik əsgərinin hamısından hələ də istifadə etmədiyinə diqqət çəkib. Rusiya gözlənildiyi qədər hava zərbələri və artilleriya atəşi həyata keçirməyib. Britaniya ordusunun yüksək rütbəli komandiri Riçard Barrons isə bu fikirdədir ki, Rusiya qısa zamanda hərbi məqsədlərinə çata bilər. Barrons deyir ki, Rusiyanın hücumunun ilkin məqsədləri Ukrayna ordusunu dağıtmaq, mərkəzi hökuməti devirmək və Ukraynanın bir hissəsini ilhaq etmək olub. Görünür, Rusiya bu məqsədlərin bəzilərində irəliləyiş əldə edib. Ukraynanın cənubunun işğalını genişləndirən rus qoşunları 2014-cü ildə işğal etdikləri Rusiya ilə Krım arasında quru əlaqəsini təmin ediblər. Arnold isə bunun "kiçik hədəf" olduğunu bildirib. Ciddi müqavimət mərkəzi olan paytaxtın ələ keçirilməsi əsas hədəflərdən biridir. Vladimir Putin Zelenskinin demokratik yolla seçilmiş hakimiyyətini öz rejimi ilə əvəz etmək istəyir. Ukraynanın şərqində rusiyayönlü tərəfdarlar olsa da, Rusiyanın təyin etdiyi hökumət 40 milyondan çox əhalinin razılığını almaqda çətinlik çəkəcək".

**İsmayıl**

# Ukraynada separatizmə zərbə, Azərbaycanda dəstək - *Qərbin ikili oyunu*



**Rusiya-Ukrayna müharibəsində müxtəlif aspektlər var: geosiyasi toqquşmanın nəticələri, dünyanın yenidən nüfuz dairələrinə bölüşdürülməsi və s. Hazırda Ukraynada yaşananlar bu aspektləri bir kənara qoymağa vadar edir, çünki ortada bir ölkənin suveren sərhədlərinə müdaxilə, beynəlxalq hüququn pozulması halı var. Və kollektiv Qərbin buna qarşı reaksiyası da olduqca haqlı görünür:**

1. Ukrayna ərazisindəki separatçılara qarşı sanksiyalar tətbiq edilir;

2. Hücum edən tərəfə - Rusiyaya qarşı genişmiqyaslı sanksiyalar irəli sürülür;

3. Bütün beynəlxalq birlik Rusiyaya qarşı cəbhədə birləşərək, Ukraynanın ərazi bütövlüyünün bərpasına çalışır;

Haqlıdırlar da, çünki mövcud dünya nizamının əsasını təşkil edən beynəlxalq hüquq sərhədlərin və suverenliyin toxunulmazlığı prinsipini əsas tutur. Heç bir ölkə başqa bir ölkənin suveren torpaqlarına müdaxilə edə bilməz. Qərb buna qarşı tətbiq etdiyi sanksiyalarda da sona qədər haqlıdır.

2008-ci ildə Rusiyanın Gürcüstana hücumu zamanı da Qərb eyni yanaşmanı sərgilədi və genişmiqyaslı sanksiyalar paketini tətbiq etdi. Gürcüstan torpaqlarında yaradılan separat rejimlərə qarşı da barışmaz mövqe tutdular. Eyni mövqe indi haqlı olaraq Ukrayna məsələsində sərgilənir və bu məsələdə bəlkə də ən çox sevinən, bu mövqeyi dəstəkləyən Azərbaycandır. Çünki biz 30 il işğaldan əziyyət çəkmişik, 30 il ərzində beynəlxalq hüququn təmin edilməsinə çalışmışıq, 30 il sonra beynəlxalq hüququ özümüz təmin etmişik və bu gün Ukraynada beynəlxalq hüququn prinsiplərinin kütləvi şəkildə müdafiə edilməsini dəstəkləyirik.

*Dəstəkləyirik, həm də sual veririk:*

- Gürcüstan və Ukrayna məsələsində separatçıya, eləcə də hücum edən tərəfə sanksiyalar tətbiq edən, beynəlxalq hüququn qorunması mövqeyindən çıxış edən Qərb niyə Azərbaycan torpaqları işğal altında olarkən, bu mövqeni sərgiləmədi?

- 30 il ərzində nə işğalçı Ermənistana, nə bu ölkənin hansısa məmuruna qarşı niyə sanksiya tətbiq edilmədi?

- Ermənistan hakimiyyətinin XX əsrin ən böyük soyqırımı aktını törədən təmsilçilərinə qarşı niyə heç bir embarqo qoyulmadı?

- Azərbaycan torpaqlarında Ermənistan tərəfindən yaradılmış separatçı rejimlərə qarşı hansısa məhdudiyyət qoyuldumu?

Azərbaycan xalqı və dövləti beynəlxalq hüququn yanındadır və bu gün Ukraynada baş verənlərin ərazi bütövlüyü prinsipinin pozulması olduğu mövqeyindən çıxış edirik. Amma xalq və dövlət olaraq bu sualları vermək, cavab tələb etmək haqqımız var.

Azərbaycan torpaqlarını işğal edən Ermənistana işğalın davam etdiyi 30 ilə yaxın müddətdə nəinki hansısa sanksiya tətbiq edilmədi, ümumiyyətlə, ciddi irad belə bildirilmədi. İşğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi belə qoyulmadı. Ermənistan Azərbaycan torpaqlarını işğal etsə də, sanksiya işğala məruz qalan Azərbaycana tətbiq edildi. 907-ci düzəliş bunun bariz nümunəsidir və bu embarqo bu gün aktiv olmasa belə, hələ də ləğv olunmayıb. Qarabağda Ermənistanın yaratdığı qondarma "Artsax"ın "nümayəndələri" qeyri-rəsmi şəkildə olsa belə Avropa paytaxtlarında ən yüksək səviyyədə qəbul olundu, Konqresdə çıxış etmək imkanı yaradıldı. Hər il ABŞ-dan təkcə Ermənistana yox, həm də Azərbaycanın suveren torpaqlarında yaradılmış separatçı rejimə maliyyə yardımı ayrılırdı. 44 günlük Vətən müharibəsində Azərbaycan öz suveren torpaqlarını azad etməklə, beynəlxalq hüququn prinsiplərini də özü bərpa etdi. Lakin müharibə zamanı kollektiv Qərb beynəlxalq hüququn yox, işğalçı Ermənistanın yanında yer aldı. Azərbaycana qarşı informasiya cəbhəsinin aparıcısı da elə Qərb idi. Müharibə başa çatıb, lakin yenə də Azərbaycan torpaqlarında qalan separatçılara Qərbdən bu və ya digər formada dəstək verilir, separatçılar qeyri-rəsmi şəkildə olsa da Avropa paytaxtlarına maneəsiz səfər edir, yüksək səviyyələrdə qəbul olunur.

**Və bizim xalq olaraq soruşmaq haqqımız var:**

- Gürcüstanda, Ukraynada pozulan beynəlxalq hüquqdursa, bəs Azərbaycan torpaqlarının işğalı ilə 30 il tapdanan nə idi?

- Bu gün Ukraynada müharibənin başlanma səbəbi olan qondarma "respublikalar" separatizmdirsə, Qarabağda 30 il saxlanılan və hələ də tam ləğv olunmayan qondarma rejim nədir?

- Gürcüstan və Ukraynada separatizmə qarşı çıxdıqları halda "artsax" adlandırılan separatçı-terrorçuları yüksək səviyyədə qəbul edirlər?

Bu qədər açıq və əyani şəkildə ikili yanaşma var. 30 illik işğal dövründə bu sualların heç birinə cavab verməyən Qərb bundan sonra da səssiz qalacaq. Çünki siyasi maraqları bunu tələb edir. Və bütün bunlar fonunda bu gün Qərbin məqsədinin Ukraynanın ərazi bütövlüyünün bərpası yox, Rusiyaya qarşı mübarizə olduğunu asanlıqla deyə bilərik. Geosiyasi proseslər göstərir ki, Qərb Rusiya ilə mübarizə üçün Ukraynanı poliqona çevirdi. Bu müharibədə haqlı olan Ukraynanı dəstəkləyirik və beynəlxalq hüququn təmin edilməsini istəyirik. Lakin kollektiv Qərbin 30 il ərzində Azərbaycana qarşı sərgilədiyi və hələ də davam edən ədalətsiz mövqeyini də unutmuruq. (publika.az)



"Putin ordusunun daha tez qalib gələ biləcəyinə inanırdı. Həmçinin NATO daxilində parçalanmaların olacağına ümid edirdi. Bunların ikisi də yanlış hesablama idi"

# "Putin indi daha zəifdir"

## Amerikalı analitik Paul Qobl: "Hərçənd daxili elitadan kiminsə açıq şəkildə ona meydan oxumaq cəsarətində olduğunu görmək üçün gözləmək lazımdır"

**Rusiya ilə Ukrayna arasında davam edən müharibə dünyanın diqqətinin Şərqi Avropaya yönəlməsinə səbəb olub. Verilən bəyanatlardan məlum olur ki, Kremlin işi bu dəfə heç də asan olmadı. Təsadüfi deyil ki, Rusiya Prezidenti Vladimir Putin artıq danışıqlara hazır olduğunu bildirib.**

Yayılan məlumata görə, o, Müdafiə naziri Sergey Şoyquya nüvə silahını hazır vəziyyətə gətirmək barədə tapşırıq verib. Şübhəsiz, bu da "saman çöpündən yapışmaq" ritorikasıdır. Böyük Britaniyanın Xarici işlər naziri Liz Trasın sözlərinə görə, Moskva geri çəkilməsə, bu, NATO ilə münaqişəyə gətirib çıxaracaq. Deməli, üçüncü dünya müharibəsi artıq real təhlükəyə çevrilib.

**Amerikalı siyasi analitik Paul Qobl hazırkı situasiya barədə "Şərq"in suallarını cavablandırdı:**

**- Rusiya ilə Ukrayna arasında müharibə gözlənilən idi?**

- Yox. İşğal başlayanadək çox az adam bu cür genişmiqyaslı hərbi toqquşma barədə düşünürdü. Əksəriyyət, o cümlədən mən daha lokal əməliyyatların olacağını fikirləşirdik.

**- Rusiya ciddi təzyiqlə üzləşəcəyini bilirdi. Elə isə belə bir toqquşma onun nəyinə lazım idi?**

- Qərbin narazılığı Kreml üçün gözlənilən idi. Lakin Rusiya Prezidenti Vladimir Putin ordusunun daha tez qalib gələ biləcəyinə inanırdı. Həmçinin NATO daxilində parçalanmaların olacağına ümid edirdi. Bunların ikisi də yanlış hesablama idi. Ukrayna xalqı tam hazırlıqlı idi. Və NATO 1989-cu ildən bəri heç vaxt olmadığı qədər vahiddir.

**- Savaşdan əvvəl həm Rusiya, həm də Ukrayna rəhbərliyi bunu istəmədiklərini deyirdilər. Kiyevin NATO-ya üzvlükdən imtina etməsi nəticəsində potensial savaşın qarşısının alınması daha yaxşı variant olmazdı?**

- Doğrudur, Kiyev Moskvanın diktəsinə razı olsa idi, savaş başlamazdı. Lakin ukraynalılar daha Rusiyanın əsarəti altında yaşamaq istəmirlər.

**- Sizcə, Türkiyənin vasitəçiliyi işə yarayacaq?**

- Ankara tərəfləri bir araya gətirməkdə müəyyən rol oynaya bilər. Lakin bunun həlledici olması ehtimalı çox azdır.

**- Putin və Zelenski hakimiyyətləri üçün təhlükə nə qədərdir. Nəzərə alaq ki, Rusiyada müharibəyə etiraz edənlər heç də az deyil.**

- Zelenski güc yolu ilə devrilə bilər. Amma indi onun tərəfdarları daha çoxdur. Putin isə daha zəifdir. Hərçənd daxili elitadan kiminsə açıq şəkildə ona meydan oxumaq cəsarətində olduğunu görmək üçün gözləmək lazımdır.

**- Müharibənin nəticəsi haqqında nə düşünürsünüz? Savaş davam edəcək, yoxsa yaxın günlərdə danışıqlar olacaq?**

- Ehtimal edirəm ki, döyüşlər davam edəcək. Və bununla paralel olaraq danışıqlar da gedəcək.

**- Müharibə Cənubi Qafqaz regionuna necə təsir edəcək?**

- Donbassın müstəqilliyinin tanınmasından sonra eyni senarinin Qarabağda da təkrarlanma ehtimalı böyük təhlükə idi. Yəqin ki, Prezident İlham Əliyevin Moskva səfərində bu məsələ də müzakirə olunub. Hər halda bundan sonra Cənubi Qafqaz ölkələri Rusiyadan daha çox ehtiyatlana bilərlər.

**- Azərbaycan Rusiyanın başının qarışmasından istifadə edərək terrorçuların Qarabağdan çıxarılmasını tələb edə və bu olmayacağı təqdirdə anti-terror əməliyyatına başlaya bilərmi?**

- Mümkündür. Lakin daha yaxşı variant Türkiyənin Qarabağda Rusiya ilə eyni səlahiyyətlərə malik olması barədə Kremli razı salmaqdır.

**Kənan Novruzov**

# "Yenə Qərb və Rusiya qalib gəldi"

## Professor Yaşar Onay: "Ukrayna xalqı məğlub oldu"



"Əgər hansısa dövlət öz milli maraqlarını deyil, başqa dövlətlərin milli maraqlarını müdafiə etsə, sonu Ukrayna kimi olacaq"

**Rusiya və Ukrayna arasında müharibə başlandığı gündən əksər Qərb ölkəsi Ukraynaya öz dəstəyini ifadə edir. Ukrayna Prezidendi Vladimir Zelenski ilə Böyük Britaniyanın Baş naziri Boris Conson arasında da telefon danışığı olub. V.Zelenski B.Consonu Rusiya ordusunun Ukrayna ərazisinə və paytaxt Kiyevə hücumları barədə məlumatlandırıb.**

"Bu gün Ukrayna həmişəkindən daha çox tərəfdaşlarının dəstəyinə ehtiyac duyur. Biz Rusiya Federasiyasına qarşı effektiv tədbirlərin görülməsini tələb edirik. Sanksiyalar daha da gücləndirilməlidir", - deyə V.Zelenski Böyük Britaniyanın Baş nazirinin diqqətinə çatdırıb.

**Qərb ölkələrinin hazırkı duruşunu "Şərq"ə dəyərləndirən türkiyəli politoloq, professor Yaşar Onay bildirib ki, bu ölkələr öz keçmiş siyasətlərinə davam edirlər:**

"Əgər siz Qərb dedikdə imperialist və müstəmləkəçilik ənənələrinə malik ölkələri nəzərdə tutursunuzsa, ortaya çıxan mənzərə bizim üçün çox da təəccüblü deyil. Keçmişdə etdiklərini edirlər. Bu, klassik imperiya siyasətidir. Parçalayın, bölün və idarə edin. Bu səbəbdən də hədəf coğrafiyalardakı dövlətləri darmadağın edib, istismara davam etdirirlər.

İllərdir, Ukraynaya güvən verərək, sizi NATO-ya, Aİ-yə aparacağıq dedilər. Ukrayna hökuməti də öz vəziyyətlərini rasional qiymətləndirə bilmədi və bu ürəksiz vədlərə inandılar. Lakin Ukraynanın maraqları Rusiya ilə yaxşı münasibətlər qurmaqdan asılı idi.

Onlar bunu görə bilmədilər. İndi deyirlər ki, niyə Qərb bizi dəstəkləmir. Bu hadisələr Rusiyanın da maraqlarına uyğun idi, ona görə də Qara dəniz qapısını və mədən baxımından çox zəngin olan Donbass bölgəsini də götürdü".

**Professorun fikrincə, bu hadisələr geniş vüsət almayacaq:**

"Silahlı qarşıdurmalar dünya müharibəsinə səbəb olmayacaq. Rusiya iqtisadiyyatı uzun müddət davam edən isti müharibəyə tab gətirə bilməz. Qərb yenə qalib gəldi. Rusiya qalib gəldi. Ukrayna xalqı məğlub oldu. Belə nəticəyə gəlmək lazımdır ki, əgər hansısa dövlət öz milli maraqlarını deyil, başqa dövlətlərin milli maraqlarını müdafiə etsə, sonu Ukrayna kimi olacaq".

**Çimnaz Şahlar**

# Onların həyatı hər an təhlükədədir



## Minaaxtaranların əmək haqlarının 600 manat olması həqiqətən çox azdır

**Ombudsman minaaxtaran vəzifəsində çalışanların məvacibinin artırılmasını təklif edir.**

İrəli sürülən bu fikir parlamentin İnsan hüquqları komitəsində 1 martda müzakirəyə çıxarılacaq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində əksini tapıb.

"Minaaxtaran" vəzifəsində çalışan əməkdaşların işi çətin, məsuliyyətli, eyni zamanda təhlükəlidir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyində "minaaxtaran" vəzifəsində çalışan əməkdaşların əməkhaqları yüksəltsin.

Məruzədə Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli, 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"na "Minaaxtaran" vəzifəsinin əlavə edilməsi təklif olunur.

Həmçinin Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli, 92 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"na "Minaaxtaran" vəzifəsinin əlavə edilməsi təklif olunub.

**Hərbi jurnalist Səxavət Məmmədov "Şərq"ə açıqlamasında təklifi müsbət dəyərləndirib:**

"Bundan öncə də dəfələrlə belə təkliflər olub. O insanların həyatı təhlükədədir. Hər an hər şey ola bilər. Müharibədən sonra minatəmizləmə zamanı partlayışlar nəticəsində həyatını itirənlər, xəsarət alanlar da olub. Bu baxımdan minatəmizləyənlərin maaşını qaldırmaqda fayda var. Bundan başqa, minaaxtaranların işə götürülməsi ilə də bağlı çox ciddi bir problemlər var. Bunun üzərində də işləmək lazımdır. Əvvəl minaaxtaran vəzifəsində çalışan mütəxəssislər hər hansı məsələ ilə bağlı ordu sıralarından tərxis ediliblər. Onlar indi həmin sahə üzrə işləmək istəyirlər. Amma onlara müxtəlif bəhanələr gətirilir. Yəni yüngül cinayət işləri olması səbəbindən, yaxud da müxtəlif maddələrlə işdən azad ediliblər. Daha çox təcrübəsi olmayanları silahlı qüvvələrə gətirib, yetişdirməyə çalışırlar. Bu, indiki məqam üçün doğru yanaşma deyil. Bəlkə də uzun illər əvvəl belə etmək lazım idi. Onda müharibədən sonrakı proseslərin də düzgün idarə edilməsi daha məqbul olardı. Hazırda Qarabağda yenidənqurma işləri davam edir. İnsanların o ərazilərə gediş-gəlişinə hələ də icazə verilmir. Səbəb kimi minalı sahələrin olduğunu bildirirlər. Azərbaycana çoxlu sayda minaaxtaranlar lazımdır. Şəxsiyyətin sayını artırmaq labüddür. Ona görə də bu vəzifəyə həvəsliləri deyil də, peşəkarları cəlb etmək minadantəmizləmə prosesini sürətləndirər".

*Hərbi ekspert diqqətə çatdırıb ki, işə götürülmə ilə də bağlı bəzi neqativ hallar var:* "Bir çoxları rüşvət kimi məsələlərin mövcudluğundan şikayət edirlər. Qarabağ savaşından sonra ölkəmizə bir çox dövlətlərin minaaxtaran qrupları gətirilib. Onlara daha gözəl şərait yaradılıb, qonorarlar verilir. Lakin yerli mütəxəssislərlə xaricilərin fəaliyyətində elə bir fərq yoxdur. Onların maaşını kifayət qədər artırmaq zəruridir. Minaaxtaranların əmək haqqısı təxminən 500-600 manat civarındadır. Həyatını təhlükəyə atmış, ölümlə üzbəüz qalan insanların məvacibi o səviyyədə olmamalıdır. Məsələ ictimailəşdirilməlidir. QHT-lər də bu işi qabartmalıdır".

**Sücayət Mehti**



**Rusiya Mərkəzi Bankı uçot dərəcəsini gözlənilmədən 20 faiz qaldırıb. Bununla bağlı qərar bankın Direktorlar Şurasının təcili iclasında qəbul edilib. Qeyd olunub ki, güclü sanksiya qərarları var, amma Rusiya Mərkəzi Bankına olan sanksiya daha önəmlidir. Bu, böyük fəlakətdir.**

Rusiya Mərkəzi Bankı bundan sonra dollar, funt və avroda saxladığı vəsaitlərdən istifadə edə bilməyəcək. 2021-ci ilin ortalarına olan məlumata əsasən Rusiya MB-nin dollar ehtiyatları rezervlərin 16,4 faizini (96 milyard dollar -red) təşkil edir. 189 milyard dollar ekvivalentində avro, 38 milyard dollar ekvivalentində isə funt vəsaiti var. Toplam 323 milyard dollardan söhbət gedir. Rusiya bu vəsaitə sərəncam verə bilməyəcək. Xatırladaq ki, Rusiyanın valyuta ehtiyatlarının ümumi həcmi 469 milyard dollardır. Şimal qonşumuzun 132 milyard dollarlıq da qızıl ehtiyatı var.

# Müharibə Rusiya iqtisadiyyatına baha başa gələcək

## Mərkəzi Bankın aktivlərinin dondurulması ilə bağlı qərarı rublu ciddi şəkildə silkələyəcək

**Millət vəkili Vüqar Bayramov "Şərq"ə deyib ki, Qərb ölkələrinin yeni sanksiyaları fonunda Rusiya rublu ciddi şəkildə dəyərsizləşib. Deputatın sözlərinə görə, Rusiya valyutası ABŞ puluna nisbətən psixoloji həddi keçərək 1 dollar 105 rubl məzənnəsinədək ucuzlaşıb:** "Görünən odur ki, müharibə davam edərsə və sanksiyalar genişlənərsə, bu, rubl üçün sonuncu dayanacaq olmayacaq. Digər tərəfdən Rusiyada dollara tələbin artması xarici valyuta qıtlığı yaradacaq. Demək olar, bütün Rusiya banklarının qarşısında uzun növbələr müşahidə olunur. Vətəndaşlar banklardan pullarını götürməyə çalışırlar. Bu isə Rusiyanın bank sektoru üçün ciddi neqtaiv nəticələrə səbəb ola bilər".

*Parlament üzvü bəyan edib ki, Rusiyanı SWİFT-dən (Qlobal Banklararası Maliyyə Rabitəsi Assosiasiyası -red) uzaqlaşdırmaq ilə bağlı qərardan sonra bu ölkənin maliyyə sektoru sanksiyalara daha kəskin reaksiya verməkdədir:* "Rusiya Mərkəzi Bankının aktivlərinin dondurulması ilə bağlı qərar qəbul ediləcəyi halda bu, rublu ciddi silkələyə bilər. Savaşın başlamasından 5 gün keçməsinə baxmayaraq, Qərbin sanksiyaları Rusiya iqtisadiyyatına ciddi təsir göstərməkdədir. Mühairbə Rusiya iqtisadiyyatı üçün heç də ucuz başa gəlməyəcək. Artıq rusiyalı 2 milyarder müharibənin dayandırılması ilə bağlı müraciət edib. Biznes yeni sanksiyalar dalğasından ciddi şəkildə ehtiyatlanır".

**İsmayıl Qocayev**

# Rusiyalı tələbələr Avropa universitetlərindən xaric edilir



**Rusiyada insan haqları üzrə müvəkkil Tatyana Moskalkova Elm və ali təhsil naziri Valeri Falkovla müzakirələr zamanı Ukraynadakı vəziyyətlə əlaqədar rusiyalı tələbələrin Avropa universitetlərindən xaric edildiyini açıqlayıb.**

"Şərq" Russia.RT-ya istinadən xəbər verir ki, T.Moskalkova bu barədə instaqramda paylaşım edib. Onun sözlərinə görə, tərəflər bu mühüm işi birgə həyata keçirməyə" razılaşıblar: "Nazirlik Ukraynadakı vəziyyətə görə Fransa, Çexiya, Belçika və digər Avropa ölkələrinin universitetlərindən qovulan rusiyalı tələbələrin hüquqlarını qorumaq üçün görünməmiş tədbirlər görür".

Tərəflər həmçinin qondarma "Donetsk və Luqansk Xalq Respublikaları"ndan təxliyə edilmiş tələbələrin təhsil hüququnun təmin edilməsi məsələlərini müzakirə ediblər. Bundan əvvəl Böyük Britaniyanın Baş naziri Boris Conson bildirib ki, Ukrayna ətrafında vəziyyətə reaksiya rusofobiyaya çevrilməməlidir.

**Çimnaz Şahlar**

# Strategiyamız bəllidir

## "Azərbaycan ABŞ-la əməkdaşlığı daha da genişləndirəcək"

**Azərbaycanın Xarici İşlər Nazirliyində Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Bu barədə Azərbaycan XİN-nin "Twitter" səhifəsində məlumat dərc edilib. Məlumatda qeyd olunub: "Bu münasibətlə Amerika Birləşmiş Ştatlarının hökumətinə və xalqına ən xoş arzularımızı bildiririk. Azərbaycan və ABŞ arasında əlaqələrin daha da möhkəmlənməsini arzu edirik". Tədbirdə ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger iştirak edib.



**Millət vəkili Asim Mollazadə hazırkı ABŞ-Azərbaycan münasibətlərindən "Şərq"ə danışarkən bildirib ki, 30 il ərzində tərəflər arasında çoxşaxəli əməkdaşlıq olub:** "Biz bu əməkdaşlığı irəliləyən illərdə daha da uğurla davam etdirə biləcəyik. Çünki Azərbaycanın xarici siyasət strategiyası məhz əməkdaşlıq və tərəfdaşlıq üzərində qurulub".

Millət vəkilinin sözlərinə görə, Azərbaycan Ağ Evlə əməkdaşlığını bundan sonra daha da genişləndirəcək.

*Qeyd edək ki, Azərbaycan və ABŞ arasında diplomatik münasibətlər 1992-ci il fevralın 28-də qurulub. ABŞ-ın Bakıda səfirliyi isə 1992-ci il martın 17-də açılıb.*

**Günəş Mərd**

# Rəsmi Bakıdan Ukrayna ilə bağlı məntiqli addım!

**Ukraynadakı hərbi əməliyyatlar, şəhərlərlə qəsəbələrin, kəndlərlə kiçik və böyük yaşayış məntəqələrinin bombalanması, yüz minlərlə insanın taleyinə gecələri səhərədək qorxaraq partlayış gözləmək yazıldığı günlər davam edir.**

"Qafqazinfo" xəbər verir ki, həmin ölkədəki situasiya ilə bağlı beynəlxalq siyasət müstəvisində düşərgələnmə, mövqelərdən asılı olaraq tərəf seçilməsi, birmənalı bəyanatlar və fəaliyyət vasitəsilə geosiyasi imperativlərin yenidən müəyyənləşdirilməsi məqamları var.

Bütün siyasi perturbasiyalar dönəmində olduğu kimi, siyasi və ya başqa formatdakı qarşıdurmanın bilavasitə iştirakçılarından savayı ətrafdakılar bir sualı ritorika səviyyəsinə yüksəldir: "İndiki şəraitdə biz nə etməliyik?".

Azərbaycana gəldikdə isə rəsmi Bakının proseslərlə bağlı tutduğu mövqe "Niyə belədir?" sualının intensivliyini artırır.

Ukrayna ilə ölkəmiz arasında sıx əlaqələr, sarsılmaz münasibətlər var və bu, ikitərəfli təmasların istisnasız olaraq bütün sahələrinə təsir edib. Münasibətlərin inkişafı tərəfdaşlıq, dövlətlərarası əlaqələr və biznes-assosiasiyalar vasitəsilə şərtlənir. Sadəcə, bir fakt: ötən ilin ilk 11 ayı ərzində ölkələrimiz arasında ticari dövriyyə 866 milyon dollar təşkil etmişdi.

Kənd təsərrüfatından tutmuş, informasiya texnologiyalarına qədər əməkdaşlığın geniş miqyası mövcuddur. Xüsusilə də neft-kimya və neft-qaz komplekslərinin inkişafı sektorunda tərəfdaşlığın ciddi perspektivləri mövcuddur.

Azərbaycanla Ukrayna arasında energetika sahəsində əməkdaşlığın da böyük gələcəyi var. Bu sahədə Ukrayna ərazisindəki karbohidrogen yataqlarının işlənməsi, energetika obyektlərinin özəlləşdirilməsi, yeni infrastruktur layihələrinin reallaşdırılması əhəmiyyətli yer tutur.

Bundan başqa, "Cənub Qaz Dəhlizi" layihəsinin ikinci və üçüncü mərhələsi çərçivəsində Avropa İttifaqı ölkələrinə satılan Azərbaycan qazının bir qismini Ukrayna almağa hazırlaşır.

Humanitar sahədə də ikitərəfli əməkdaşlıq önəmli məqamlardan biridir. Məsələn, Ukraynanın ali təhsil müəssisələri azərbaycanlı abituriyentlər arasında yetərincə populyardır. Məhz bu səbəbdən ötən il Ukraynanın universitetlərinə daxil olan



azərbaycanlı gənclərin sayı 1247 nəfərə çatıb.

Bəhs etdiyimiz məsələlər qarşılıqlı əlaqələr və ikitərəfli əməkdaşlıq, siyasi, iqtisadi və s. sahələrdə tərəfdaşlığı əks etdirən detallar idi.

Azərbaycanla Ukrayna arasındakı münasibətlərin çağdaş konfiqurasiyasının formalaşması hər iki tərəfin qərarları, addımları, davranışı və əməlləri nəticəsində baş verir. İndiki situasiyada Azərbaycanın Ukraynadakı situasiya ilə bağlı mövqeyi yetərincə məntiqi və soyuqqanlı olmaqla, praqmatizm, hadisələrə adekvat yanaşmaya əsaslanan siyasətdir. Rəsmi Kiyevdən fərqli olaraq, Bakı qayğılandığını və narahatlıq keçirdiyini ifadə edən bəyanatlar verməklə kifayətlənmir.

Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə uyğun olaraq SOCAR-ın Ukraynada fəaliyyət göstərən "SOCAR Energy Ukraine" şirkəti, humanizm prinsiplərini rəhbər tutaraq, təcili tibbi yardım və yanğınsöndürən xidmətinin avtomobillərinə pulsuz yanacaq ilə dəstək verməkdədir. Azərbaycanın "Silk Way" aviaşirkətinin təyyarələri artıq iki uçuş gerçəkləşdirərək, Ukraynaya humanitar yardım, dərman preparatları və s. çatdırıblar.

Ölkəmizin xarici siyasəti, xüsusilə də postsovet məkanındakı tərəfdaşlarımızla olan münasibətlər tam inikas prinsipi üzərində qurulmur: Bakı həmişə tərəfdaşlarının yanındadır və problem varsa, dərhal, təxirəsalınmaz şəkildə dəstəyini və yardımlarını təklif edir.

Səbəb bəsitdir: xarici siyasətimiz emosiyalara, yaşananların xatırlanmasına və xatırladılmasına köklənmiş imperativlərə əsaslanmır.

Əsaslansaydı, 2020-ci ilin sentyabrın 27-də artıq sabiq Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsi ilə bağlı Ukrayna XİN-in bəyanatını yenidən gündəmə gətirərdik.

Xatırladaq ki, həmin bəyanatda deyilirdi: "Ukrayna XİN-i Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsindən dərin narahatdır. Biz gərginliyə səbəb olan halları araşdırır, tərəfləri dialoqa qayıtmağa və münaqişəni sülh yolu ilə həll etməyə çağırırıq" narahatlığı ifadə olunur".

Nazirlik tərəfləri münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün dialoqa qayıtmağa çağırmaqla yanaşı, həlak olanların yaxınlarına başsağlığı verib.

"Ukrayna XİN Ermənistanla Azərbaycan arasında münaqişənin gərginləşməsindən dərin narahatdır. Biz gərginliyə səbəb olan halları araşdırır, tərəfləri dialoqa qayıtmağa və münaqişəni sülh yolu ilə həll etməyə çağırırıq. Fikirlərimiz qurbanların yaxınları ilədir" - bəyanatda deyilirdi.

Bir anlıq düşünün: erməni işğalçıları mövqelərimizə hücum edir, dinc insanlarımızı artilleriya atəşinə tutur, 30 illik işğalı əsla bitirməyəcəyini və torpaqlarımızı azad etməyəcəyini bildirir - rəsmi Kiyev isə "tərəfləri dialoqa çağırır", fikirlərinin "qurbanların yaxınları ilə" olduğunu vurğulayır.

İşğalçı ilə ərazisinin bir qisminin işğala məruz qaldığı ölkəni bərabər tutmaq, sadəcə "narahatlıq izharı" ilə işi bitmiş bilmək tərəfdaş ölkənin olaya münasibətində ən azı yolverilməzdir.

Bakının Ukraynadakı proseslərə rəsmi reaksiyasına baxaq. Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin bəyanatından iqtibas: "Ukrayna ətrafında baş verən hadisələr narahatlıq doğuran proseslərdir: "Azərbaycanın mövqeyi ondan ibarətdir ki, beynəlxalq hüququn norma və prinsipləri rəhbər tutularaq, bu məsələnin siyasi, diplomatik yollarla və dialoq əsasında həll edilməsi çox vacibdir. Bu xüsusda da atəşkəsə nail olunması vacib, təməl addımlardan biridir. Azərbaycan beynəlxalq münasibətlərdə beynəlxalq hüququn norma və prinsiplərini həmişə rəhbər tutur. Bu sırada da dövlətlərin suverenliyi və ərazi bütövlüyü məsələsini xüsusi qeyd etmək istərdim".

Göründüyü kimi, rəsmi Bakının bəyanatı daha konkret, olayların aşkar dəyərləndirildiyi və mövqenin izhar olunduğu açıqlamadır. Onu da unutmamışıq ki, Azərbaycandakı diplomatik nümayəndəliklərin rəhbərləri 44 günlük Vətən müharibəsi dönəmində Gəncə, Bərdə və Tərtərə səfərlər edəndə Ukraynanın ölkəmizdəki səfiri onların arasında yox idi.

Müharibə başa çatandan sonra işğaldan azad edilmiş ərazilərə ölkədəki diplomatların səfərləri gerçəkləşəndə Ukraynanın Bakıdakı səfiri Vladislav Kanevski gözə dəymədi.

Biz onu da xatırlamaq istəmirik ki, 2003-cü ildə Ukraynada ilk "avromaydan" olanda, Kiyevdəki "narıncı inqilab" basilləri Qərbdəki sifarişçilər və senari müəlliflərinin təlimatı ilə postsovet məkanı ölkələrinə "ixrac" ediləndə məhz Kiyevdəki sözdə "qeyri-hökumət təşkilatları", fondlar və cəmiyyətlər Azərbaycandakı anarxosindikalist, radikal müxalifətə stavka edərək Bakıda hakimiyyət çevrilişi senariləri hazırlamışdılar.

Bu azmış kimi Avropa Şurasının Parlament Assambleyasındakı (AŞ PA) Ukrayna nümayəndə heyətinin üzvlərinin tam əksəriyyəti Azərbaycanla bağlı məsələlərin müzakirəsi zamanı Bakıya antoqonist mövqe tutur, bəzi hallarda isə Ermənistanın və ermənipərəst deputatların hazırladıqları, Bakıya qarşı absurd və marazmatik böhtanlarla zəngin qərar layihələrinin lehinə səs verirdilər.

Ukrayna nümayəndə heyətinin AŞ PA-da Azərbaycana verdiyi "dəstək"lə bağlı materiallar, məlumatlar, açıqlamalar çoxdur - maraqlananlar "Google"-də axtarış verə bilərlər. Əminik ki, nəticələr bir Azərbaycan vətəndaşı olaraq sizi qane etməyəcək.

Bəs bunun müqabilində biz nə etmişik?

Ukrayna ilə münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldən strateji tərəfdaşlıq sazişi imzalamışıq, bütün beynəlxalq strukturlarda və qurumlarda Kiyevi dəstəkləyirik, Ukraynanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmaz olduğunu bəyan edir, bunu aksiomatik prinsip sayırıq.

Azərbaycan bütün tərəfdaşları ilə münasibətlərdə, o cümlədən Ukrayna ilə əlaqələrdə qayğısını, diqqətini və müstəqil mövqeyini əməldə göstərir - sözdə yox.

Belə olan təqdirdə Ukrayna ilə bağlı situasiyada Azərbaycanın tutduğu mövqeni "tənqid" edənlər ya subyektivizmin təkinə varanlar, ya da demaqogiyanı siyasi mövcudluq və vətəndaş mövqeyinin izharı sanıb ətrafdakıları yanıltmağa çalışanlardır.

# 7 min gənc təhsilini yarımçıq qoyub

## Təhsil haqları ən azı 50 faiz azaldılmalıdır



**Ombudsman Azərbaycan Respublikası vətəndaşları üçün təhsil müəssisələrində təhsil haqqının endirilməsini təklif edib.**

Bu, parlamentin İnsan hüquqları komitəsində 1 martda müzakirəyə çıxarılacaq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində əksini tapıb.

Məruzədə Azərbaycan Respublikası vətəndaşlarına münasibətdə dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsilə görə müəyyən edilmiş məbləğin mümkün qədər aşağı salınması, dövlət sifarişli yerlərin sayının ödənişli ixtisas yerlərinə nisbətdə artırılması təklif edilir.

Eyni zamanda kənd rayonlarında əhalinin sayı az olan yaşayış məntəqələrində yeni məktəblərin, o cümlədən modul tipli məktəblərin tikilib istifadəyə verilməsi və ya mümkün olmadıqda həmin məntəqələrdə yaşayan məktəbli uşaqların yaxınlığdakı qəsəbə və kənd məktəblərinə dövlət hesabına daşınmasının təşkili, respublikanın müxtəlif regionlarında, müvafiq ərazilərdə və yaşayış məntəqələrində uşaq sayı və tələbat nəzərə alınmaqla, dövlət məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması tövsiyə edilib.

**Ombudsmanın təhsil ödənişləri ilə bağlı təklifini "Şərq"ə dəyərləndirən təhsil üzrə ekspert Kamran Əsədovun sözlərinə görə, hazırda ali təhsil müəssisələrinin qəbul planı yerinin 50 faizi ödənişsiz ixtisaslardır.**

"Ali və orta ixtisas təhsil müəssisələrində ümumilikdə 110 min nəfər ödənişli əsaslarla təhsil alır. Son 5 ildə 7 mindən çox şəxs təhsil haqqını ödəyə bilmədiyinə görə təhsildən imtina edib. Bu, ciddi rəqəmdir. Nəzərə alınmalıdır ki, Azərbaycan əhalisinin cəmi 17 faizi ali təhsillidir. Biz əmək bazarında rəqabət yaratmaq və ixtisaslı kadrların sayını çoxaltmaq üçün savadlı insanların sayını artırmalıyıq. Bütün bunların fonunda bu addıma ehtiyac var.

Azərbaycanda təhsil haqqı kifayət qədər yüksəkdir. Keyfiyyət baxımından yanaşsaq, pulsuz təhsil də bahadır. Bizim ali təhsilimiz o qədər aşağı səviyyəlidir ki, ona pul vermək lazım deyil. Onsuz da orta ixtisas və ya ali təhsili başa vurandan sonra iş tapmaq üçün mütləq əlavə pul verməlidirlər. Bu qədər pula ehtiyac yoxdur. Biz ali təhsil müəssisələrinin təhsil haqlarını ən azı 50 faiz azaltmalıyıq. Bu, ali təhsilin əlçatanlığının, əhatə dairəsinin genişlənməsinə imkan verəcək. Bütün sosial təbəqələrdən olan insanlar bu imkandan faydalana biləcəklər. Əlavə olaraq keyfiyyət də artmalıdır".

*Ekspert əhalinin sayının az olduğu yerlərdə yaşanan məktəb problemindən də danışıb. O bildirib ki, dağlıq və dağətəyi ərazilərdə, Masallıda, Lerikdə, Daşkəsəndə, Qubada və s. məktəblər uzaq məsafədə yerləşir:*

"İnsanlar uzaq yol getməli olurlar. Həmin ərazilərdə modul tipli məktəblərin tikilməsi çox yaxşı olardı. Çünki vaxt itkisi və yol təhlükəsi problemləri aradan qalxacaq. Bu səbəbdən, ombudsmanın təklifi kifayət qədər müsbət təklifdir və orta ümumtəhsil məktəblərinin keyfiyyətinin artırılması üçün vacib məqamdır".

**Sənan İsmayıl**

## Nadirin Putin sevdası...

İzləyiciləri tənqid etdi



**Müğənni Nadir Qafarzadə sosial şəbəkədə yeni foto paylaşıb.**

"Şərq"in məlumatına görə, müğənni Rusiya-Ukrayna müharibəsinin getdiyi ərəfədə Prezident Vladimir Putin ilə fotosunu paylaşıb.

"Özü bilər... Biz nəsə deməklə hər şey düzəlsəydi, çox söz deyərdik! Heyif, biz acizik"- deyə o, paylaşımında qeyd edib.

Bəzi izləyicilər sözügedən şəkli Rusiyaya dəstək kimi qiymətləndirib.

İstifadəçilər "o nəyi bilir, günahsız insanlara qəsd edir", "ar olsun", "bu necə yanaşmadır, Putinə söyləmək lazımdır ki, günahsız insanlar ölür. V.Putin özü bilər, nə deməkdir "- kimi şərhlər bildiriblər.

**Aygün Tahir**


**Elanlar**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Nurlan Tofiq oğlu İsgəndərovun adına verilmiş 15.02.2021-ci il tarixli 2493 nömrəli (seriya № AA 0007605) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Ramazanov Rəhim Bahəddin oğluna Memarlıq və İnşaat Universiteti tərəfindən verilmiş diplom itdiyi üçün etibarsız sayılır.


# Düyün açılır

## Ombudsmanın təklifindən sonra sənədsiz evlər problemi həll oluna bilər



**Ombudsman qanunsuz tikilmiş evlərin dövlət qeydiyyatına alınmasını təklif edir. Bu, parlamentin İnsan hüquqları komitəsində 1 martda müzakirəyə çıxarılacaq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) 2021-ci il üzrə məruzəsində əksini tapıb.**

Məruzədə ötən əsrin ortalarından etibarən Bakı şəhərində, onun ətrafındakı qəsəbə və kəndlərdə, o cümlədən birgə təsərrüfatlara (sovxozlara) məxsus ərazilərdə müxtəlif şəxslər tərəfindən zəbt edilmiş torpaq sahələrində qanunsuz tikilmiş evlərin, habelə bələdiyyələr tərəfindən fərdi ev tikintisi üçün verilmiş torpaq sahələrində tikilmiş evlərin inventarlaşdırılması və dövlət qeydiyyatına alınması, eyni zamanda həmin ərazilərdə və yeni yaşayış massivlərində daşınmaz əmlak və nəqliyyat infrastrukturu obyektlərinə ünvanların verilməsi təklif edilib.

İllərdir həllini tapmayan problemə Ombudsman müdaxiləsi sənədsiz evlərə nəhayət ki, yaşıl işıq yandıracaqmı?

**"Əmlak" Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı "Şərq"ə açıqlamasında ombudsmanın təklifini alqışladığını dedi:**

- Ombudsmanın sənədsiz evlər məsələsini qaldırması, ümid edirəm ki, bu prosesdəki düyünün açılmasına imkan yaradacaq. Sənədsiz evlər məsələsi aktual problemdir və bu problem həll olunmalıdır. Təəssüf ki, bu istiqamətdə müvafiq icra orqanları öhdələrinə düşən işi yerinə yetirmir. Konkret iş ortaya qoymurlar. Sənədsiz evlərin sənədləşdirilməsi təkcə vətəndaşlara yox, dövlətə də lazımdır. Daşınmaz əmlakın qeydiyyata alınması ilk növbədə vətəndaşın hüquqlarının bərpasıdır. Vətəndaşın əmlakı üzərində hüququ olmalıdır və bunun üçün də daşınmaz əmlak dövlət qeydiyyatına alınmalı, inventarlaşdırılmalıdır. Qeydiyyat prosesinin o qədər üstünlükləri var ki! Vətəndaş əmlak üzərində hüququnu təsbit edir, nəhayət ki, yaşadığı ünvan üzrə qeydiyyata düşür. Bu, vətəndaşa təhsil, səhiyyə xidmətlərindən qanuni şəkildə yararlanmaq imkanı verəcək. Hazırkı şəraitdə minlərlə vətəndaş bilavasitə yaşadığı ərazi üzrə qeydiyyatda deyil, bölgələrdə qeydiyyatda qalanlar var, hansısa qohumunun mənzilində, ya da polis şöbələrində qeydiyyata alınanlar var. Minlərlə vətəndaşın faktiki ünvanı bəlli deyil. Bu da hüquqi-inzibati imkanları məhdudlaşdırır. Amma daşınmaz əmlakın sənədləşdirilməsi baş verdikdə, bütün bu problemlər həllini tapmış olacaq. Hazırda sənədsiz evlərin alqı-satqısı qeyri-qanuni aparılır. Sənədsiz evlər qanuni alqı-satqı predmeti ola bilməz deyə, proses dövlət nəzarətindən kənar baş verir. Ona görə dövlət alqı-satqı prosesində əldə edilməli olan vergi rüsumlarından da, vergilərin toplanmasından da kənarda qalır. Daşınmaz əmlakın sənədləşdirilməməsi bələdiyyələrə də zərbə vurur. Bələdiyyələr əmlak vergisini toplaya bilmir. Heç bir sənədi olmayan evə görə vətəndaşdan əmlak vergisi toplana bilməz. Yəni bu problem hüquqi, iqtisadi ziyanları böyükdür. Bir halda ki, ombudsman sənədsiz evlər məsələsini qaldırır, ümid edək ki, problem nəhayət həllini tapar.

**Məlahət Rzayeva**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**




**Rusiyanın Ukraynaya hərbi təcavüzü meyvə-tərəvəz qiymətinin aşağı düşməsinə səbəb olub. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, Ukrayna və Rusiyaya meyvə-tərəvəzin əsas ixracatçısı Antalyada fermerlər müflis olmaq üzrədir.**

# Ukrayna böhranı fermerləri müflis edir

## Pomidorlar şaxında, tərəvəzlər dirrikdə, TIR-lar yolda qalıb

İxracat dayandığından pomidorun qiyməti 60 faiz ucuzlaşıb. Məhsul toplanması üzrə dərnək başqanı Hasan Ali Yılmaz deyib ki, "oraya düşən bombalar bizə də "düşdü". Dərnəkdə 144 komisyonçu, 400-ə yaxın da tacir cəmləşib. Məhsulların 40 faizi pomidor, 20 faizini bibər, digər qismini də başqa tərəvəzlər təşkil edir. Məhsulların ixrac olunduğu ölkələrin başında Ukrayna və Rusiya dayanırdı. Lakin müharibə başlayandan fermerlər məhsulları ixrac edə bilmir. Qiymətlərdə 50-60 faiz ucuzlaşma müşahidə edilir. Məhsullar yüklənmiş və yola salınmış maşınlar da geri dönür. TIR-ları Ukraynada qalanlar da var. Savaş öncəsi gündəlik 30 TIR Ukraynaya yola salınırdı. Oradan da Belarus və Rusiyaya. Avropa Birliyi Rusiyaya girişə qadağa qoyduğundan ora da məhsul artıq göndərilmir. Yalnız dəniz yolu vasitəsilə ixracat hələ ki, mümkündür. Bu günlərdə ancaq Rumıniyaya 1 TIR məhsul göndərilib. İxrac yoxdur deyə məhsullar da toplanmamış qalıb. Bazarda pomidorun qiyməti 5 TL-yə düşüb. Eləcə də bütün digər tərəvəz, bostan məhsullarının qiyməti xeyli aşağı düşüb. Qazanan yerli əhalidir. Bol və ucuz meyvə-tərəvəz yeyəcəklər.

**Məlahət**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**

**Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 548**


## Azercell Ukraynadakı vəziyyətlə əlaqədar abunəçilərinə dəstəyini davam etdirir!

### Lider mobil operator Azərbaycandan Ukrayna istiqamətində edilən zəngləri martın 2-nə qədər pulsuz təqdim edəcək

**Ukraynada hərbi vəziyyətlə əlaqədar "Azercell Telekom" MMC hazırda orda olan Azərbaycan vətəndaşları, həmçinin vətəndaşlarımızın bu ölkədə yaşayan doğmaları ilə kəsintisiz rabitə əlaqəsini təmin etmək məqsədilə 27 fevral-2 mart 2022-ci il tarixləri arasında Azərbaycandan Ukrayna istiqamətində edilən telefon zənglərini bütün Azercell abunəçiləri üçün ödənişsiz təqdim edəcək.**




Ukrayna istiqamətində mobil rabitə xəttlərində mümkün yüklənmə riskinin və pulsuz bağlantıdan sui-istifadə hallarının qarşısının alınması məqsədilə mobil operator öz abunəçilərdən qeyd edilən güzəştli zəngləri 3 dəqiqə civarında saxlamağı xahiş edir.

Xatırladaq ki, Azercell daha öncə Ukraynada olan abunəçilərinin balansına 50 azn həcmində vəsait yükləmişdir.

Azercell hər zaman abunəçilərinin xidmətindədir: Çağrı Mərkəzi (ümumi əlaqə nömrəsi *1111, fakturasız xətt abunəçiləri üçün (012) 490 49 49, fakturalı xətt abunəçiləri üçün (012) 490 52 52) və Online Dəstək xidməti 24 saat ərzində abunəçilər üçün açıqdır.

# "Nar" "Gələcəyini Qur!" layihəsinə dəstəyini davam etdirir

**"Nar"ın da dəstək olduğu "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin TED konfransı formatında növbəti görüşü baş tutub. "Yaradıcı düşüncə" mövzusuna həsr olunmuş konfransda məruzəçilər layihənin 6 dəyərlərindən biri olan yaradıcılıq və tənqidi düşüncə haqqında fikirlərini bölüşüblər.**



Tədbirin spikerləri yaradıcı yanaşma, kreativ və tənqidi düşüncə, innovasiya və təşəbbüskarlığa dair gənclərə təqdimatlar verib öz təcrübələrini bölüşüblər. Qeyd edək ki, layihənin iştirakçıları Bakının müxtəlif rayonlarında yerləşən orta məktəblərdə 11-ci sinifdə təhsil alan 85 şagirddir.

Qeyd edək ki, "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi yüksək bilik və bacarığa malik olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir.

Layihə çərçivəsində "Nar" Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən olan 10 məktəblinin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürüb. Məqsəd gənclər üçün təhsil imkanlarını daha da əlçatan edərək onların uğurlu gələcəyinə töhfə verməkdir.

"Nar"ın digər sosial layihələri və KSM strategiyası haqqında ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.




## “Bu terror məni Kiyevdəki evimdən qovdu"

“Eurovision 2016” qalibi Camala Rumıniyaya sığınıb

**”Eurovision 2016”nın qalibi, Krım türkü Camala iki uşağı ilə Ukraynadan Rumıniyaya sığınıb. Sosial media hesabında paylaşım edən Camala ”24 fevral axşam Kiyevdən uşaqlarım üçün yola düşdüm. Ukrayna böyük, gözəl və müstəqildir”, - deyə bildirib.**

Sosial media hesabından paylaşım edən Camala, ”Rusiyadan gələn işğalçıların Ukraynaya hücumundan 5 gün keçir. Fevralın 24-də gecə uşaqlarla birlikdə Kiyevdən çıxdıq. Demək olar ki, 4 gün maşında düzgün yemək yemədən keçirdik. 4 saata təxminən 2 kilometr irəliləyə bildik. ”Niyə?” deyə soruşa bilərsiniz. Bəli, milyonlarla qadın və uşaq hər şeyi, evlərini tərk edir. Arvadlarını arxada qoyub, uşaqlarını güllələrdən qorumaq üçün qaçır”- deyib.

Evini tərk etmək məcburiyyətində qaldığını ifadə edən Camala, ”Ən əsası, bu qanlı terroru anlamıram. Bu, tam olaraq terrordur. Bu terror məni Kiyevdəki evimdən qovdu. Bəs siz nə edəcəksiniz? Orada yaşayacaqsan? Ölkəyə girəndə ”Buranı burada xilas etdik” deyəcəksən? Yox, mən belə düşünmürəm”,- söyləyib.

**Çimnaz**

## 500 mindən çox insan Ukraynanı tərk edib



**Fevralın 28-də BMT-nin Qaçqınlar üzrə Agentliyi Ukraynadan ayrılanların sayını açıqlayıb.**

”Şərq” xəbər verir ki, bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Filippo Qrandi məlumat yayıb. Məlumatda qeyd olunub ki, Rusiyanın işğalı başlayandan bəri 500 mindən çox insan Ukraynanı tərk edib: ”Onların yarısından çoxu Polşa ilə sərhədi keçib. Təkcə bazar günü 368 min insan qonşu ölkələrə qaçıb”.

**Xanlar Əlibəy**




# Ukrayna gözəli işğala qarşı...

## “Sərhədimizi keçən hər kəs öldürüləcək!”



**Ukrayna gözəli Anastasiya Lenna Rusiyaya qarşı direnişdə ölkəsinə dəstək verilməsi üçün dünyaya çağırış edib. Anastasiya Lenna 2015-ci ildə ”Miss Grand” Dünya gözəllik müsabiqəsində Ukraynanı təmsil edib.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Anastasiya da hər bir ukraynalı kimi Rusiya təcavüzünə qarşı çıxaraq sivil dirənişə qatıldığını instagram hesabında bəyan edib. A.Lenna Kiyevdə xarabalığa çevrilmiş yaşayış binasının önündə əli silahlı fotosunu ”Ukraynanı işğal etməyə gələn hər kəs öldürüləcək” sözləri ilə paylaşıb. Anastasiya ”Gerçək və güclü bir lider” olaraq tanıtdığı Ukrayna Prezidenti V.Zelenskinin hərbçilərlə birgə addımladığını əks etdirən fotonu da paylaşıb. Həmçinin, Ukrayna Silahlı Qüvvələrinə dəstək üçün ianə toplanması müraciəti edib. Ukrayna gözəlinin 75 min izləyicisi var. Anastasiya bir müddət Türkiyədə model olaraq çalışıb. 5 əcnəbi dil bilən A.Lenna tərcüməçi kimi də işləyib.

Hazırda ABŞ-da yaşayan digər məşhur ukraynalı - aktrisa Mila Kunisin həyat yoldaşı, aktyor Ashton Kutcher də ”Ukrayna yanındayıq, ürəklərimiz işğala qarşı mübarizə aparanlarla birlikdədir” mesajını paylaşıb. 38 yaşlı Mila Kunis - Milena Markovna Kunis Ukraynanın Çernivtsi şəhərində anadan olub. Milena 7 yaşında olarkən ailəsi ilə birlikdə ABŞ-a köçüb. Bu arada, ”Tesla” və ”SpaseX” şirkətlərinin sahibi ABŞ-lı milyonçu Elon Musk peyk internet sistemi ”Starlink”in Ukraynada fəaliyyətini başladıb. Elon Musk bildirib ki, Ukrayna əhalisinin peyk internet imkanlarından istifadə edə bilməsi üçün xüsusi qrup göndərəcək.

**Məlahət**

## Nəsrin Cavadzadə 1,5 milyon qazandı

O, şirniyyat markalarından birinin siması seçilib



**Hazırda ”Üç quruş” serialında ”Bahar” obrazına həyat verən azərbaycanlı aktrisa Nəsrin Cavadzadə şirniyyat markalarından birinin siması seçilib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, aktrisa yeni reklam çəkilişindən 1,5 milyon lirə (təxminən 181 min manat) məvacib qazanıb. Videoçarx yaxın zamanda izləyicilərə təqdim olunacaq.**

***Qeyd edək ki, Nəsrinin rol aldığı serial bazar ertəsi ”Show” telekanalında yayımlanır. Onun tərəf müqabili isə Uraz Kayqılaroğludur.***

## “Qara siyahı"ya düşdülər

Müharibəni dəstəkləyən müğənnilərin şəxsi nömrəsini yayıb intiqam aldılar



**Ötən gecə Rusiyanın məşhur müğənniləri Filipp Kirkorov, Nikolay Baskov, Oleq Qazmanov və aparıcı Tina Kandelakinin başına iş gəlib.**

**Axşam.az xəbər verir ki, məşhurların şəxsi telefon nömrəsi tvitterdə paylaşılıb. Buna səbəb isə sözügedən şəxslərin müharibəni dəstəkləməsi olub. Qazmanov və Kandelaki Rusiya hökumətini dəstəklədiklərini yazdıqları post yayımlayıblar. Baksov isə müharibəni dəstəklədiyi üçün Latviyanın ”qara siyahı”sına düşüb. ”Pətniüa” kanalında prodüser kimi çalışan Mariya Qrankina sözügedən nömrələri instaqramda hekayə bölümündə də paylaşıb. ”Orel i reşka” layihəsinin əməkdaşlarından olan Mariya hazırda kanaldan qovulub. Buna səbəb isə səyahətlə bağlı verilişin Ukrayna prodakşını vasitəsilə ərsəyə gətirilməsidir.**

## 113 minlik kombini bəyənilmədi



**Türkiyəli aktrisa Demet Özdemir ötən gün 30 yaşını qeyd edib.**

**Axşam.az xəbər verir ki, aktrisa ad günü şənliyində geyindiyi libasla diqqət çəkib. Məlum olub ki, Demetin geyimi 46 min 600 lirə, ayaqqabısı isə 5 600 lirədir. Aktrisanın sırğaları 19 min 700 lirə, qolbaqları isə 42 min 300 lirədir. O, ümumilikdə kombininə 113 min 200 lirə (təxminən 16 min 342 manat) xərcləyib. Aktrisa gecədən olan fotoları sosial media hesabında paylaşıb. Sevgilisi müğənni Oğuzhan Koçun da Demeti özəl günündə tək qoymadığı diqqət çəkib. Lakin Demetin kombini izləyicilər tərəfindən bəyənilməyib. Onun ünvanına ”Heç yaraşmayıb”, ”Pul var, zövq yox”, ”Paltar güneş önü alan pərdəyə bənzəyir”, ”Elə bil hədiyyə paketidir” kimi şərhlər yazılıb.**




# Dünyanın qədərini dəyişdirən ayaqqabı

## Hillari Klinton kitabında Putindən yazıb




**ABŞ-ın 42-ci Prezidenti Bill Klintonun həyat yoldaşı Hillari Klintonun ”Çətin Seçimlər” adlı kitabında Rusiya dövlət başçısı Putinlə əlaqədar hissə ictimai mediada gündəm olub. Putinin 2-ci dünya savaşında ölümdən dönən bir ananın oğlu olduğu məlumatı oxuyan hər kəsi heyrətə salıb. Bir cüt ayaqqabıyla başlanan hekayənin detalları ilə tanış olun.**

- Döyüş bölgəsindən icazə ilə məmləkəti Leninqrada *(Sankt-Peterburq)* gələn bir əsgər, evinin olduğu prospektə doğru hərəkət edərkən, Almaniya bombardmanı nəticəsində ölənləri daşıyan bir yük maşını ilə qarşılaşır. Ölülər toplu basdırılmaq üçün qəbiristanlığa aparılırdı. Cəsədlərin arasında əsgərin diqqətini çəkən bir məqam vardır; bir ayaqqabı. Gördüyü ayaqqabı həyat yoldaşına aldığı ayaqqabıya bənzəyirdi. Evə gedib - getməməkdə tərəddüd edən əsgər vəzifəliyə, ayaqqabını geyən ölünü görmək istədiyini söyləyir. Vəzifəli icazə verir. Əsgər yük maşınına çıxır, cəsədə baxır və gördüyü adam arvadıdır. O, vəzifəliyə cəsədin arvadı olduğunu və onu götürüb özü basdırmaq istədiyini söyləyir. Vəzifəlinin köməyi ilə cəsəd maşından endirilir. Əsgər arvadının çətin də olsa nəfəs aldığını fərq edir və onu götürüb dərhal xəstəxanaya aparır. Tibbi müdaxilələr nəticəsində qadın xilas olur, yaxşılaşır və normal həyata dönür.

O gün ölümdən dönən qadın daha sonra hamilə qalır və 7 oktyabr 1952-ci ildə Rusiyanın dövlət başçısı Vladimir Putini dünyaya gətirir.

Putin bu hekayəni özü ABŞ Xarici işlər naziri olduğu dövrdə Hillari Klintona danışıb. H.Klinton da hekayəyə kitabında yer verib.

**Turan**

## 112 illik "sistem" şüşəsi...

Qədim namazgahda tapıldı




**Çanaqqala döyüşlərinin yaşandığı tarixi Gelibolu yarımadasındakı Namazgah Tabyasının qala divarlarında (döyüşlərin getdiyi ərazidə qapalı istehkam) aparılan bərpa işləri zamanı 112 yaşı olduğu təxmin edilən infuziya şüşələri (sistem şüşəsi) tapılıb.**

Şüşələr tədqiqatdan sonra Çanaqqala Dastanı Tanıtım Mərkəzində sərgilənəcək. ”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, Çanaqqala Döyüşləri Gelibolu Tarixi Ərazi Bakanlığı tərəfindən Eceabat bölgəsi Kilitbahir kəndində o dönəmlərdə inşa edilmiş istehkamı əhatələyən qala divarlarında bərpa işləri aparılır. Bərpa işləri sırasında 1910-cu ildə paketlənmiş 10 santimetr ölçüdə, 2 infuziya şüşəsi aşkar edilib. Tarixi Ərazi üzrə başqan İsmayıl Kaşdemir tapıntı ilə bağlı məlumat verərək bildirib ki, ehtimal olunur ki, bu şüşələr əsgərlərə tibbi ləvazimat kimi paylanıb. Yaralı əsgərlərə sistem köçürülməsində çətinlik yaranmasın deyə, əsgərlərə onları çantalarında saxlamaq tapşırılıb. Maraqlı burasındadır ki, şüşələrin içindəki maye bugünədək keyfiyyətini itirməyib: ”Burada tapılan hər bir əşyada qəhrəman mehmetciyin əl izləri, nəfəsi var. Bu ərazilər bizim üçün çox qiymətlidir” deyən İ.Kaşdemir aşkar edilən əşyaların Çanaqqala ruhunu, bu qəhrəmanlığın necə yazıldığını göstərir.

**Məlahət**

## Barmaqlar sıradan çıxır

Ofisdə işləyənlər ağır xəstəliklərlə üzləşir



**Rusiyalı məşhur həkim Yevdakimenko ofis işində çalışanların işlərinə görə ən çox üzləşdikləri və tutulduqları xəstəlikləri sadalayıb.**

Medicina.az xəbər verir ki, oturaq və qapalı məkanda işləmək səbəbindən onlarda ümumi oksigen acliğı, əzələ, bağlar, oynaqlarda problemlər, ayaq və əllərdə uyuşma, boyun protruziyası, varikoz, karpat tunel sindromu daha çox rast gəlinir:

”Yaşlandıqca əl barmaqları çox adamda dəyişir. Lakin ofis işçilərində bu əl barmaqlarının daha çox istifadəsi nəticəsində tezləşir. Əllərə, barmaqlara yük çox olduğu üçün oynaq qığırdaqları, bağlar deformasiyaya uğrayır.

Eləcə də kompüterdə işləməkdən biləkdə karpal tunel sindromu, oynaqda iltihab yaranır. Belə işçilərə fasilə, istirahət, iltihab əleyhinə dərmanlar, masaj lazımdır.

Eləcə də çox oturmaqdan oturaq sinir iltihabı olur. Onlarda beldə, büzdümdə, budda ağrılar yaranır”.